

Milli azadlıqdan şirin nemət yoxdur!

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

26 sentyabr
2024-cü il,
cümə axşamı
№ 176 (6762)
Qiyməti
60 qəpik



# Hərbi Hava Qüvvələrimizin arsenalı güclənir

Bax səh. 2

# Müstəqillik və suverenlik prinsiplərinə əsaslanan xarici siyasət

Bax səh. 5



## Ən az xarici borca malik ölkə

Bax səh. 5

## Əməkdaşlıq üçün mükəmməl platforma

Bax səh. 2



## BMT "hərəkətsiz" quruma çevrilir?

Bax səh. 7

## Azərbaycan mövqeyindən bir addım geri atmayacaq

Cənubi Qayqazın əsaslı inkişafı, sabitliyin formalaşması və münasibətlərin normallaşması üçün sülh zəruri şərtdir. Bu, mənada məğlub, iqtisadi geriləmənin cəngində boğulan, siyasi böhran yaşayan Ermənistan sülhün formalaşmasında daha maraqlı olmalıdır. 2022-ci ildən ölkəmizin təşəbbüsü ilə başlanan sülh prosesində Azərbaycanın təqdim etdiyi şərtlər beynəlxalq hüquqa söykənməklə, mövcud həqiqətləri əks etdirməklə yanaşı, Ermənistanın özünü real dövlət olaraq təsdiqləməsi üçün yeni zəmin yaradır - burada yer alan müddəalar İrəvanın qlobal arenada suveren dövlət kimi yer tapması üçün şəraitin formalaşdırılması deməkdir. Dövlətlərin bir-birlərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq...

Bax səh. 4

## Gələcək inkişafın əsas təminatçısı...

Gənclik hər zaman milli gücün aparıcı lokomotivi sayılır. Tarixin bütün dönəmlərində milli ruha, vətənpərvərlik hissinə, dövlətə və millətə bağlılıq kimi ali dəyərlərə malik gənclər öz ölkəsinin inkişafının ən mühüm lokomotivinə çevrilib.

Milli ruhda böyüyən Azərbaycan gəncliyi də ölkəmizin strateji hədəflərinə doğru irəliləməsi prosesində fəal iştirakçı kimi yer alır, iqtisadi, siyasi və sosial həyatda mühüm rol oynayır. Azərbaycanın inkişafı texnoloji tərəqqiyə və iqtisadi resurslarla yanaşı, həm də milli dəyərlər üzərində qurulan güclü mənəvi təməllərə əsaslanır. Bu prosesdə ön sırada çıxış edən gənclər isə ölkələrinin tarixini, mədəniyyətini və ənənələrini mənimsəməlidirlər. Bu şüur onların...

Bax səh. 3

## Avropa Şurası səhvini düzəldəcəkmi?

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksək səviyyəli həftəsi çərçivəsində sentyabrın 24-də Avropa Şurasının baş katibi Alen Berse ilə görüşüb. Görüşdə Azərbaycan və Avropa Şurası arasında mövcud gündəlikdə duran məsələlər, habelə cari regional vəziyyət müzakirə olunub.

**Ceyhun Bayramov Avropa Şurasının baş katibi ilə görüşüb**

Azərbaycanın dialoq və qarşılıqlı hörmətə əsaslanaraq hər zaman Avropa Şurasının təsisatları ilə əməkdaşlığa açıq olduğu bildirilib. Buna baxmayaraq, Avropa Şurası Parlament Assambleyasının (AŞPA) cari ilin yanvar...

Bax səh. 4

## Ermənistan hüquqi öhdəliyini yerinə yetirməlidir

Hüquq anlayışı lokal çərçivədə fərdi münasibətlərin tənzimlənməsi üçün əsas sayıldığı kimi, beynəlxalq müstəvidə də analoji mahiyyəti kəsb edir. Başqa sözlə, dövlətlərin beynəlxalq hüququn subyekti kimi mövcud hüquqi rejim çərçivəsində, qüvvədə olan qaydalara uyğun davranış sərgiləməsi sadəcə, bir seçim deyil - bu onun üzərinə götürdüyü və yerinə yetirməyə borclu olduğu öhdəlikdir. Bu yanaşmaya əks mövqe sərgiləmək isə mövcud hüquqi nizamın qaydasını pozmaq deməkdir. Beləliklə, qeyd edilən davranış qeyri-qanuni vəziyyət yaratdığı təqdirdə bu, dövlətin üzərinə götürdüyü öhdəliyi yerinə...

Bax səh. 6

## Vitse-prezident Harrisi Qərbi azərbaycanlıların hüququna hörmət etməyə çağırırıq

Qərbi Azərbaycan İcması ABŞ-nin vitse-prezidenti Kamala Harrisin, prezidentliyə namizəd qismində, Amerikanın erməni icmasına ünvanlandığı müraciətdə "Dağlıq Qarabağ"dan olan ermənilərin qayıtmaq hüququna istinad etməsinə dair bəyanat yayıb. Bəyanatda qeyd edilir ki, "Azərbaycanda "Dağlıq Qarabağ" adlı bölgə yoxdur. Separatçılıq və işğalla assosiasiya olunan bu terminin işlədilməsi Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmətsizlikdir. Bundan əlavə, ABŞ vitse-prezidentinin qayıdış hüququna yalnız etnik ermənilər üçün istinad etməsi ayrı-seçkilik xarakteri daşıyır. Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların öz evlərinə qayıtmaq hüququ ədalətin və davamlı sülhün bərqərar olunması üçün zəruri şərtdir. Vitse-prezidentin Qərbi azərbaycanlıların qayıdış hüququnu görməzdən gəlməsi sülhə kömək etmir və yanlışdır. Biz vitse-prezident Harrisə müraciət edərək, onu Qərbi azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq hüququna hörmət etməyə və qayıdış hüququ məsələsində etnik və ya dini mənsubiyyətə əsaslanan ayrı-seçkiliyə yol verməməyə çağırırıq".



## Sakit okeanda "Berlin divarı"

Bax səh. 7



## Qərb Ermənistanı fərqli fondların köməyi ilə silahlandırır...

Bax səh. 6

# Prezident İlham Əliyevə çoxməqsədli JF-17C təyyarələri təqdim olunub





Sentyabrın 25-də Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə Pakistan Aviasiya Kompleksi və Chengdu Çin Aviasiya Korporasiyasının birgə layihəsi olaraq hazırlanmış müasir, yüngül çəkili, istənilən hava şəraitinə uyğun, gündüz və gecə rejimli çoxməqsədli JF-17C (Block-III) təyyarələri təqdim olunub.

Təyyarələr artıq Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına daxil edilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verib. Azərbaycanın müdafiə naziri və Pakistan Aviasiya Kompleksinin sədri vitse-marşal Hakim Raza dövlətimizin başçısına təyyarələrin taktiki-texniki xüsusiyyətləri, istismar qaydaları və digər göstəriciləri barədə məlumat veriblər. Bildirilib ki, JF-17C (Block-III) birmühərrikli çoxməqsədli döyüş təyyarəsidir. Təyyarə hava-hava və hava-yer döyüş qabiliyyətinə, eləcə də orta və aşağı hündürlüklərdə yüksək döyüş manevrinə malikdir, effektiv atəş gücünə görə seçilir.

Qeyd edək ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son illər Azərbaycanda ordu quruculuğu geniş vüsət alıb. Xüsusilə Vətən müharibəsində qazanılan şanlı Qələbədən sonra Azərbaycan Ordusu yeni inkişaf mərhələsinə qədəm qoyub, Silahlı Qüvvələrimizin müasir dövrün çağırışları əsasında komplektləşdirilməsi işləri uğurla davam etdirilir. Dövlətimizin başçısının tapşırığı ilə yeni ordu birləşmələri və qoşun növləri yaradılır, şəxsi heyətin döyüş hazırlığı yüksəldilir. Eyni zamanda, Ordumuzun hərbi-texniki təchizatı məsələsi Ali Baş Komandanın xüsusi diqqət mərkəzindədir. Yeddinci çağırış Milli Məclisin ilk iclasındakı nitqində hərbi gücümüzün artırılmasının bir nömrəli vəzifə olduğunu vurğulayan Prezident İlham Əliyev deyib: "İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir".



Milli müdafiə sənayemizin inkişaf etdirilməsi, eyni zamanda, xarici ölkələrlə hərbi sahədə əməkdaşlıq, yeni müqavilələrin imzalanması da xüsusi vurğulanmalıdır. Azərbaycanın müxtəlif istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlıq etdiyi ölkələrdən biri də qardaş Pakistandır. Prezident İlham Əliyevin bu ilin iyulunda Pakistana dövlət səfəri iki ölkə arasında dostluq, qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərinə yeni təkan verib. Azərbaycan və Pakistan beynəlxalq platformalarda daim bir-birinə qarşılıqlı dəstək göstərir və həmrəylik nümayiş etdirirlər.

# Əməkdaşlıq üçün mükəmməl platforma

## "ADEX-2024" yubiley sərgisində dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edir

Son illərdə özünün müdafiə sənayesini inkişaf etdirməyi dövlət siyasətinin prioritetlərindən biri kimi müəyyənləşdirən Azərbaycan bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsinə də böyük önəm verir. Bu baxımdan respublikamızda müntəzəm olaraq ixtisaslaşdırılmış sərgilərin keçirilməsi diqqətəlayiq haldır. Dünyanın qabaqcıl şirkətlərinin qatıldıqları belə sərgilərdə səmərəli təcrübə mübadiləsi aparılır, yeniliklər təqdim olunur, həmçinin alqı-satqı müqavilələri, niyyət protokolları imzalanır. Bu günlərdə Bakı Ekspo Mərkəzində "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisinin açılışı baş tutub. Prezident İlham Əliyev sərgi iştirakçılarına məktub ünvanlayıb və tədbirin keçirildiyi məkana gələrək sərgi ilə tanış olub. Dövlətimizin başçısı məktubunda vurğulayıb ki, bu sərgi dünya silah bazarında ixraca təklif olunan hərbi sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri ilə tanış olmaq, beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələr imzalamaq üçün geniş imkanlar yaradır.

Qeyd edək ki, sərgi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir.






### 10 illik uğurlu fəaliyyət

"ADEX"-in qısa müddətdə keçdiyi yol kifayət qədər uğurlu olub. Tam əminliklə deyə bilərik ki, paytaxtımızda keçirilən bu tədbir artıq beynəlxalq əməkdaşlıq platformasına çevrilib. Sərgi dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında mühüm rol oynayır. Bu amilə diqqət çəkən Prezident İlham Əliyev bildirib ki, "ADEX" dost və müttəfiq ölkələrin tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında unikal rol oynayır. "ADEX" müxtəlif ölkələrin öz müdafiə və müdafiə sənayesi sahələrini gücləndirmələri, istehsal imkanlarını artırmaları, müasir və innovativ vasitələri tətbiq etmələri və təcrübə mübadiləsi aparmaları baxımından önəmli tədbirdir", - deyə dövlətimizin başçısı vurğulayıb.

Beşinci dəfə təşkil olunan "ADEX" Azərbaycanda və regionda müdafiə sənayesi və təhlükəsizlik sahəsində mühüm hadisədir. Bu genişmiqyaslı tədbir regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir. "ADEX" sərgisi qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayır.

Açılış tədbirində bildirildiyi kimi, yubiley sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri var. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. Bu il 12 ölkə sərgidə milli stendləri ilə iştirak edir. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya ilk dəfə milli stendlərlə iştirak edirlər. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Qardaş Türkiyə sərgidə ən çox şirkətlərlə təmsil olunan ölkələrdən biridir. Bu şirkətlərdən biri olan "Roketsan" 1988-ci ildə qurulub. Şirkət müxtəlif növ raketlər, reaktiv silahlar, atış və hərəkət sistemləri ilə birlikdə idarə olunan döyüş sursatları, istiqamətləndirmə-idarəetmə sistemləri, döyüş başlıqları, mexaniki hissələr, alqoritm və proqram təminatını hazırlayır və istehsal edir, onları quru, hava və dəniz platformaları ilə birləşdirir. Eyni zamanda, şirkət bu sistemlərə maddi-texniki dəstək verir, raket yanacağı istehsal edir, ballistik mühafizə layihələri hazırlayır və həyata keçirir, eləcə də öz müəssisələrində kosmik raketləri işləyib hazırlayır.

Dost Pakistan İslam Respublikasının pavilyonları da öz zənginliyi ilə diqqət çəkir. Ölkəmizlə əməkdaşlıq edən Pakistanda istehsal olunan hərbi məhsullar hərbi sənaye kompleksinin bütün istiqamətlərini əhatə edir. Qlobal Sənaye və Müdafiə Həlləri (GIDS) şirkəti Pakistanın birinci dərəcəli dövlət mülkiyyətində olan müdafiə konsorsiumudur və ölkənin ən böyük müdafiə istehsalatı müəssisələrini, o cümlədən əsas tədqiqat və inkişaf fəaliyyətlərinin mərkəzini təmsil edir. Şirkət tərəfindən sərgidə döyüş PUA-ları, aviasiya raketləri, tank mühafizə sistemləri, maskalanma toru, tank əleyhinə sistemlər nümayiş olunur.

İsrailin milli pavilyonlarında geniş çeşiddə eksponatlar nümayiş olunur. Müdafiə, aerokosmik və kommersiya bazarlarında lider olan İsrail Aerokosmik Sənayesi ("IAI") milli müdafiə və təhlükəsizlik problemlərini həll etmək üçün ən müasir texnologiyadan və onilliklər ərzində sübut edilmiş döyüş təcrübəsindən istifadə edir. "IAI" şirkəti sərgidə yerüstü sistemlər, çoxmissiyalı havadan kəşfiyyat və nəzarət sistemləri, radarlar, rabitə sistemləri, PUA-lar üçün komponentlər, çoxsahəli ballistik raketlər və rəqəmsal kommunikasiya peykləri nümayiş etdirir.

### Dünyada Azərbaycana artan inam

Bəhs olunan sərgi öz miqyasına görə kifayət qədər sanballı tədbirdir və ona beynəlxalq səviyyədə böyük maraq var. Bunu iştirakçıların sayından da görmək mümkündür. Bu il yubiley sərgisində daha çox - dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edir.

Ölkəmizdə belə bir beynəlxalq səviyyəli sərginin baş tutması dünya birliyinin Azərbaycana olan dərin inamının ifadəsidir. İndiki dönəmdə hansısa bir ölkəni dünya birliyi üçün cəlbedici edən cəhətlərdən ən önəmlisi onun müsbət beynəlxalq imicidir. Bu kontekstdən çıxış edən beynəlxalq təşkilatlar öz tədbirlərini keçirərkən ölkənin imkanları və resursları ilə yanaşı, qlobal miqyasda mövqelərini də nəzərə alırlar. Milli maraqlar üzərində qurulan müstəqil xarici siyasət kursu həyata keçirən, qlobal çağırışlara həssas yanaşmalar sərgiləyən, beynəlxalq əməkdaşlığın və həmrəyliyin möhkəmlənməsinə sanballı töhfələr verən Azərbaycan bütün dünyada ləyaqətli dövlət kimi tanınır və hörmət bəslənilir.

Eyni zamanda, dünya birliyinin inamı Azərbaycanın beynəlxalq səviyyəli tədbirlərin keçirilməsində qazandığı zəngin təcrübədən qaynaqlanır. İndiyədək Azərbaycanda beynəlxalq təşkilatların çoxlu sayda siyasi, iqtisadi və humanitar mövzularda tədbirləri keçirilib. Uğurla baş tutan beynəlxalq idman yarışlarını, müxtəlif mövzularda forumları, konfransları, müsabiqələri bura aid etmək olar. Qeyd olunan siyahıda Formula 1 Azərbaycan Qran-Prisini, "Eurovision" mahnı müsabiqəsini, I Avropa və IV İslam Həmrəyliyi oyunlarını, Bakı Beynəlxalq Humanitar, Mədəniyyətlərarası Dialoq, Qlobal Bakı və Qlobal Media forumlarını, Dini Liderlərin Zirvə toplantısını, Qoşulmama Hərəkatının nazirlər görüşünü və digər tədbirlərin adlarını sadalamaq mümkündür.

Hazırda isə Azərbaycan noyabr ayında keçiriləcək COP29 iqlim konfransına ev sahibliyi etməyə hazırlaşır. Bununla bağlı qərar ötən ilin dekabrında Dubayda baş tutan COP28 çərçivəsində verilib. Respublikamızın namizədliyi Şərqi Avropa qrupu üzrə irəli sürülərək yekdilliklə dəstəklənib. Azərbaycanın bu mötəbər tədbirə hazırlaşmaqdan ötrü cəmi bir il vaxtı var idi. Vaxtın azlığına baxmayaraq, bütün hazırlıq işləri cədvəl üzrə yüksək səviyyədə həyata keçirilir. BMT-nin ən böyük tədbirlərindən biri olan COP29 konfransında qlobal iqlim çağırışları müzakirə olunacaq. Kifayət qədər əhatəli gündəlik müəyyənləşdirilib. Hazırda iqlim çağırışları dünyanın əksər ölkələrinin qapısını döyür. Ancaq hər tərəfdən su ilə əhatə olunan kiçik ada dövlətləri üçün bu, bir mövcudluq məsələsidir. Buna görə də Azərbaycan həmin dövlətlərə real dəstək verilməsi təşəbbüsündən çıxış edir. Azərbaycanda COP29 öncəsi baş tutan sərgidə də iqlim çağırışları ilə bağlı peşəkar müzakirələrin aparılması mümkündür. Bu məqama diqqət çəkən Prezident İlham Əliyev "Ölkəmiz mötəbər beynəlxalq tədbirləri yüksək səviyyədə və böyük peşəkarlıqla təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirmişdir. Azərbaycanın belə genişmiqyaslı və son dərəcə əhəmiyyətli tədbirləri keçirmək üçün müasir infrastruktura malik və təhlükəsizlik baxımından sabit ölkə olması dünya ictimaiyyəti tərəfindən hər zaman müsbət qiymətləndirilir. Bu il ölkəmizdə baş tutacaq dünyanın qlobal xarakterli mötəbər beynəlxalq tədbirlərindən sayılan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 da bunun bariz nümunəsidir. Əminliklə söyləmək olar ki, artıq beşinci dəfədir təşkil olunan "ADEX" sərgisi əvvəlki illərdəki kimi yenə də yüksək səviyyədə keçiriləcəkdir. Müdafiə sənayesi də karbon tullantılarının azaldılması baxımından böyük potensiala malikdir. Hesab edirəm ki, COP29 öncəsi keçirilən "ADEX-2024" sözügedən mövzunun peşəkar müzakirəsi üçün əlverişli platformadır", - deyə vurğulayıb.

### Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir

Təxminən otuz il ərzində işğal faktı ilə üzləşən Azərbaycan son 20 ildə ordu quruculuğuna, o cümlədən də müdafiə sənayesinin inkişafına böyük diqqət göstərib. Əgər Azərbaycanın hərbi-müdafiə xərcləri 2003-cü ildə 150 milyon manat idisə, hazırda 6 milyard manatdan çoxdur. Yəni son 20 ildə hərbi xərclər 40 dəfə artırılıb. Respublikamızda 2022-ci ildə müdafiə və milli təhlükəsizlik sahəsinə 5622,5 milyon manat məbləğində vəsait yönəldilib. Qeyd olunan rəqəm dövlət büdcəsi xərclərinin 17,5 faizini təşkil edib. Bu vəsait 2021-ci illə müqayisədə 737,0 milyon manat və ya 15,1 faiz çox olub. 2023-cü ilin təsdiqlənən büdcə layihəsində müdafiə və milli təhlükəsizlik istiqaməti üzrə 5 320 093 593,0 manat məbləğində vəsait yönəldilməsi nəzərdə tutulmuşdu. Ötən ilin yayında dürüstləşmə zamanı büdcəyə bütövlükdə, 3 milyard manatdan çox vəsait əlavə edildi. Əlavə vəsaitin də 1,1 milyard manatı məhz bəhs olunuan prioritet üzrə istiqamətləndirildi. 2024-cü il dövlət büdcəsi layihəsinə dəyişikliklərdən sonra müdafiə və milli təhlükəsizlik xərcləri 705 milyon manat artırılaraq 6 milyard 421 milyon manatdan 7 milyard 126,3 milyon manata çatdırılıb.

Qürurverici haldır ki, ölkəmizin müdafiə sənayesi müəssisələrində buraxılan müxtəlif növ hərbi texnika Ordumuzun silahlanmasına cəlb olunub və onların keyfiyyət parametrlərinin yüksək olduğu bilavasitə döyüşlərdə təsdiqlənib. Yubiley sərgisində də respublikamızda buraxılan silahlar və digər hərbi texnikalar geniş çeşiddə nümayiş olunur. Açılış tədbirinə qatılan Prezident İlham Əliyev əvvəlcə Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyindəki "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyətinin pavilyonunda nümayiş etdirilən hərbi məmulatlara baxıb. "Azərsilah"a məxsus pavilyonda PUA, müxtəlif növ kəşfiyyat və kamikadze dronları, 30 millimetrlik avtomatik top, zirehli gödəkcələr, aviabombalar və təlim simulyatorları nümayiş etdirilir. Bütövlükdə, "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" Qapalı Səhmdar Cəmiyyəti sərgidə fəal iştirak edir. "Azərsilah"ın daha bir pavilyonu sərginin 3-cü zalında fəaliyyət göstərir. Burada ziyarətçilərə müxtəlif növ atıcı silahlar, snayper tüfəngləri, minaatanlar, kiçikçaplı patronlar, müxtəlif növ mərmilər, zirehli dəbilqə və zirehli gödəkcələr, optik nişangah və cihazlar təqdim olunur. Milli müdafiə sənayesi müəssisələrində müasir silahların istehsalının mənimsənilməsindən məmnunluğunu bildirən Prezident İlham Əliyev vurğulayıb: "Xüsusi qeyd edim ki, Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi məsələlərinə dövlət tərəfindən xüsusi diqqət yetirilir və bu sahələrin daha da inkişafı prioritet istiqamətlərdəndir. Son illərdə ölkəmizin müdafiə sənayesi çox sürətlə inkişaf edir. Mövcud istehsal sahələrinin müasir standartlara uyğun təkmilləşdirilməsi ilə yanaşı, yeni istehsal sahələrinin yaradılması üzrə işlər uğurla həyata keçirilir. Düzgün aparılmış islahatlar nəticəsində ölkəmizdə istehsal edilən müdafiə təyinatlı məhsulların çeşidi artırılmışdır və bu gün Azərbaycanda 1000-dən çox adda hərbi təyinatlı məhsul istehsal edilir".

*Mübariz ABDULLAYEV*

# Əlaqələndirmə Qərargahının növbəti iclası Kəlbəcər şəhərində keçirilib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə Qərargahın növbəti iclası Kəlbəcər şəhərində keçirilib.

Qərargahın rəhbəri sentyabr ayında Azərbaycan tarixində xüsusi əhəmiyyətli bir sıra hadisələrin baş verdiyini vurğulayaraq, bir il əvvəl sentyabrın 19-20-də Qarabağda həyata keçirilmiş antiterror əməliyyatı nəticəsində ölkəmizin dövlət suverenliyinin tam bərpa edildiyini bildirib. Qeyd olunub ki, bu tarixi günün ildönümü ərəfəsində dövlətimizin başçısı tərəfindən sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü kimi təsis edilib.

İclasda Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını fəda etmiş bütün şəhidlərin əziz xatirəsi dərin hörmətlə yad edilərək, 2020-ci il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin Zəfərlə nəticələnməsinin uzaq keçmişdən davam edən ədalətsiz tarixi prosesə son qoyduğu və torpaqlarımıza əsl sahiblərinin əbədi qaytarılmasına yol açdığı iştirakçıların diqqətinə çatdırılıb.



Qərargahın rəhbəri bildirib ki, bu gün dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş bütün ərazilər böyük quruculuq və bərpa dövrünü yaşayır. Dövlətimizin başçısının təsdiqlədiyi "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən işğaldan azad edilmiş ərazilərin hərtərəfli inkişafına nail olmaq məqsədilə bütün prioritet istiqamətlər üzrə çoxşaxəli işlər görülür.

İşğaldan azad edilmiş ərazilərdə müasir və səmərəli istehsal, ticarət və xidmət infrastrukturlarının yaradılması, sənaye potensialının reallaşdırılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində bir sıra tədbirlərin, o cümlədən investisiya layihələrinin maliyyələşdirilməsinin, sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin olunmasının və kredit faizlərinin subsidiyalaşdırılmasının həyata keçirildiyi bildirilib. Qeyd olunub ki, cəmi 3 il ərzində Ağdam Sənaye Parkı rezident sayına görə ölkə sənaye parkları arasında ikinci yerdə qərarlaşıb.

Bununla yanaşı, dayanıqlı məskunlaşmanın təmin olunması üçün keçmiş məcburi köçkünlərin məşğulluq məsələlərinin kompleks şəkildə həlli və onların davamlı iqtisadi fəallığının təmin edilməsi məsələlərinə xüsusi diqqət yetirildiyi bildirilib.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin fəaliyyəti, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın icrası, əhalinin məşğulluğunun və dayanıqlı məskunlaşmasının təmin edilməsi, ərazilərdə nəqliyyat infrastrukturunun qurulması, habelə bölgədə turizmin bərpası və inkişafı sahələri üzrə görülən işlər barədə məruzələr dinlənilib. Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Kəlbəcər rayonunda xüsusi nümayəndəliyi tərəfindən görülən və planlaşdırılan işlər barədə məlumatlar təqdim edilib.

İclasın sonunda Azərbaycan Respublikasının Prezidenti tərəfindən Əlaqələndirmə Qərargahı qarşısında qoyulan vəzifələrin icrasından irəli gələrək müvafiq tapşırıqlar verilib.

Səfər çərçivəsində Kəlbəcər rayonunun ərazisində görülmüş müvafiq işlərlə tanışlıq olub və bir sıra obyektlərə baxış həyata keçirilib.

# Azərbaycanın gələcək inkişafının əsas təminatçısı...

## Gənclərin milli ruhda yetişməsi daim diqqət mərkəzində olmalıdır



Gənclik hər zaman milli gücün aparıcı lokomotivi sayılır. Tarixin bütün dönəmlərində milli ruha, vətənpərvərlik hissinə, dövlətə və millətə bağlılıq kimi ali dəyərlərə malik gənclər öz ölkəsinin inkişafının ən mühüm lokomotivinə çevrilib.

Milli ruhda böyüyən Azərbaycan gəncliyi də ölkəmizin strateji hədəflərinə doğru irəliləməsi prosesində fəal iştirakçı kimi yer alır, iqtisadi, siyasi və sosial həyatda mühüm rol oynayır. Azərbaycanın inkişafı texnoloji tərəqqiyə və iqtisadi resurslarla yanaşı, həm də milli dəyərlər üzərində qurulan güclü mənəvi təməllərə əsaslanır. Bu prosesdə ön sırada çıxış edən gənclər isə ölkələrinin tarixini, mədəniyyətini və ənənələrini mənimsəməlidirlər. Bu şüur onların vətəndaşlıq məsuliyyətini artırır və cəmiyyətdə birliyə, həmrəyliyə töhfə verir. Gələcək nəslin milli ruhda böyüməsi Azərbaycan cəmiyyətinin gələcək inkişafı ilə bağlı praqmatik proqnoz yaradır - paralel olaraq gənclərin ölkə daxilində və xaricdə milli dəyərləri təmsil etmələri, Azərbaycanın beynəlxalq imicinin qorunmasında və gücləndirilməsində mühüm rol oynayır.

**Qloballaşmanın zərərli təsirlərindən qorunmaq üçün...**

Müasir dövrdə xarici, xüsusilə, qloballaşmanın yaratdığı ideoloji və mədəni təsirlər gənclərin milli ruhda yetişməsini çətinləşdirən amillərə çevrilib. Buna görə də gənclərin xarici təsirə boyun əyməməsi üçün milli şüurun, Vətənə bağlılığın və mənəvi dəyərlərin təməlini erkən yaşlardan qoymaq vacib şərt kimi çıxış edir. Azərbaycan gəncliyi həm milli, həm də qlobal məsələlərə dair bilik və bacarıqlara sahib olmaqla yanaşı elmi və intellektual səviyyədə dünyanın digər ölkələrinin gəncləri ilə rəqabət aparmaq qabiliyyətini özündə əks edir. Milli vətənpərvərlik amili isə xarici zərərli ideologiyaların təsirinə qarşı müqaviməti və immuniteti artırır.

Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib ki, gənc nəslin milli ruhda böyüməsi sadəcə olaraq sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir: "İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır".

Bəli, xaricdən gələn ziyanlı ideoloji təbliğatlar bütövlükdə cəmiyyətin inkişafına. Milli maraqlara bağlılığa xələl yetirə bilər. Bunun qarşısının alınması üçün isə gənclərin paralel olaraq dünya ilə inteqrasiyada milli maraqları, milli kimliyi və milli ruhu qoruma bacarıqlarını inkişaf etdirmələri əsasdır. Bu mühüm nəticəyə nail olmaq üçün isə həm təhsil, həm də ailədə verilən tərbiyə milli ideallar və dəyərlər üzərində qurulmalıdır.

**Ailə və məktəbin gənclərin milli ruhda yetişməsi üçün vəzifəsi...**

Ailə və təhsil sistemi isə milli ruhun formalaşmasının ən əsas sütunlarıdır. Ailə bir insanın ilk mənəvi formalaşma məkanıdır. Valideynlərin milli və mənəvi dəyərləri uşaqlarına ötürməsi, onların ilk günlərdən milli kimlik və vətən sevgisi ilə tərbiyə olunmaları vacibdir. Valideynlərin özləri də milli dəyərlərə bağlı olmalıdır ki, uşaqlara düzgün nümunə göstərsinlər. Bu, uşaqların gənclik dövrünə çatanda sağlam milli şüura və mənəvi dəyərlərə sahib olmasına kömək edir.

Eyni zamanda, təhsil sistemi də bu prosesin ayrılmaz tərkib hissəsidir. Təhsil müəssisələri gənclərə bilik verməklə yanaşı, onların milli və vətənpərvər ruhda yetişməsinə də xidmət etməlidir. Məktəblərdə və ali təhsil ocaqlarında əncələrə Azərbaycan tarixini, milli qəhrəmanlarını, mədəni irsini və dövlətçilik ənənələrini öyrətmək əsas məqsəd olmalıdır.



Təbii ki, təhsil müəssisələri gəncləri müasir dünyanın çağırışlarına cavab verən bilik və bacarıqlarla təmin etməlidirlər ki, onlar həm daxili, həm də beynəlxalq arenada ölkələrini uğurla təmsil edə bilsinlər - təhsilin məqsədi yalnız peşəkar hazırlıq deyil, eyni zamanda vətəndaşlıq şüuru, vətən sevgisi və mənəvi dəyərlərin inkişaf etdirilməsi sayılmalıdır. Prezident İlham Əliyev öz çıxışında bu məsələyə toxunub. Bildirib ki, biz - bütün cəmiyyət daim diqqətli olmalıyıq: "Mən Xankəndidə də bunu dedim: Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu, əsasdır. Təbii ki, cəmiyyət, cəmiyyətdə hökm sürən ümumi ab-hava, necə deyərlər, iqlim - bütün bunlar gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir göstərir. Ona görə bu məsələ daim diqqət mərkəzində olmalıdır. Əminəm ki, belə də olacaq".

Təhsil və ailənin birgə səyləri nəticəsində gənclər həm savadlı, həm də milli ruhda formalaşmış vətəndaşlar kimi yetişir. Bu vətəndaşlar gələcəkdə Azərbaycanı irəli aparacaq güclü, müasir və milli dəyərlərə sadiq cəmiyyətin təməlini təşkil edəcəklər.

Milli ruhda böyüyən, savadlı və vətənpərvər gənclər Azərbaycanın gələcək inkişafı üçün ən vacib resursdur. Onların xarici təsirlərə müqavimət göstərə bilməsi, milli maraqları qoruyaraq dünya arenasında Azərbaycanı layiqincə təmsil etməsi milli təhsil və ailə sisteminin əsas vəzifələrindən biridir. Bu istiqamətdə atılan hər bir addım, həm ölkənin daxili sabitliyini, həm də beynəlxalq müstəvidə mövqeyini gücləndirəcəkdir.

**Gənclərimiz Vətən müharibəsindəki qələbədə mühüm rol oynadı...**

Azərbaycanın dövlət siyasətində gənclərə göstərilən diqqət və qayğı müstəqillik illərindən etibarən xüsusi önəm daşıyıb. Gənclərin milli ruhda yetişdirilməsi və onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsi istiqamətində atılan addımlar, müxtəlif dövlət proqramları və təşəbbüslər bu sahədə dövlətin ardıcıl siyasətini əks etdirir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən gənclər siyasəti, məhz bu məqsədlərə xidmət edir. 2005-ci ildə "Azərbaycan gəncliyi" dövlət proqramı ilə başlayan bu diqqət, gənclərin təhsil alması, vətənpərvər ruhda formalaşması və müasir dünyaya inteqrasiya etməsi üçün möhkəm baza yaradıb. Bu diqqətin ən bariz nümunəsi 2020-ci ildə Vətən müharibəsində gənc nəslin göstərdiyi şücaət və vətənpərvərlik ruhunda özünü əks etdirdi. Vətən müharibəsi zamanı Azərbaycan gəncləri, milli ruhda yetişdirilmələrinin, ölkəyə bağlılıqlarının və dövlətin gənclərə verdiyi dəstəyin nə qədər əhəmiyyətli olduğunu nümayiş etdirdilər. Azərbaycan ordusunun əsas qüvvəsini təşkil edən gənclər öz torpaqlarını azad etmək üçün böyük fədakarlıq göstərdilər. Vətən müharibəsi zamanı döyüş meydanında olan hər bir gənc, illərlə aldığı tərbiyənin, dövlətin ona göstərdiyi diqqətin və milli dəyərlərin gücü ilə irəli atıldı. Onlar düşmənə qarşı təkcə fiziki deyil, həm də mənəvi üstünlüyə sahib idilər. Prezident İlham Əliyev Milli Məclisin ilk iclasındakı çıxışında vurğulayıb ki, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?!: "Bu parlaq Qələbəni cəmi 44 gün ərzində, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - kim qazana bilib?! Bir neçə saat böyük xarici təzyiq altında davam edən antiterror əməliyyatı, - mən heç başqa amilləri demirəm, - separatçılığın kökü kəsildi Azərbaycanda - kim edə bilərdi?! Yəni, öz ölkəmizlə, xalqımızla fəxr etmək üçün ən çox haqlı olan xalq Azərbaycan xalqıdır".

Azərbaycan gənclərinin hər bir uğuru dövlətin onlara verdiyi dəstəyin və dövlət proqramlarının effektivliyini sübut edir. Gənclərin milli ruhda yetişməsi üçün açılan Gənclər Evləri, yaradılan Gənclər Fondu və digər dövlət strukturları gənclərə öz istedadlarını göstərmək və ölkənin inkişafına töhfə vermək üçün geniş imkanlar təmin edir. 2020-ci ildə qazandığımız qələbə bu işlərin bariz nəticəsi kimi tarixə düşdü.

Vətən müharibəsində göstərilən qəhrəmanlıq sadəcə cəbhə bölgəsində deyil, həm də ölkə daxilində ictimai həmrəylikdə də öz əksini tapdı. Müharibə dövründə xaricdə yaşayan azərbaycanlı gənclər bir çox könüllü təşkilatlar vasitəsilə öz həmvətənlərinə dəstək verdi, cəbhə arxasında çalışan, yaralı əsgərlərə yardım edən, informasiya müharibəsində fəal iştirak edən gənclər isə Azərbaycan xalqının birliyini və milli vətənpərvərlik ruhunu daha da gücləndirdi.

Bu gün Azərbaycan gəncləri həm müasir texnologiyaların verdiyi imkanlarla ölkənin inkişafına töhfə verir, həm də tarixi yaddaşlarını qoruyaraq milli dəyərlərə sadiq qalırlar. Vətən müharibəsindəki qələbə dövlətin gənclər siyasətinin düzgün istiqamətdə olduğunu bir daha sübut etdi. Azərbaycanın gələcək inkişafı və təhlükəsizliyi məhz bu gənclərin vətənpərvərliyi, milli ruhu və biliyi ilə təmin ediləcək.

**P.İSMAYILOV**

# Vətən müharibəsinə 1 gün qalırdı...

...Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə atəşkəs rejimini 48 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, Ermənistan Respublikasının Berd rayonunun Nerkin Karmirağbur, Ayqepar, Mosesqex, Çinari, Ayqedzor kəndlərində və Çəmbərək rayonunun Cil kəndində yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam, Koxanəbi, Əsrik Cırdaxan, Ağbulaq, Muncuqlu kəndlərində və Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Novruzlu, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.



# Müstəqillik və suverenlik prinsiplərinə əsaslanan xarici siyasət

Müstəqil Azərbaycan milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursu həyata keçirir. Təbii ki, ölkənin xarici siyasəti müxtəlif inkişaf mərhələlərində milli və qlobal səviyyələrdə meydana çıxan çağırışlar nəzərə alınmaqla müəyyənləşdirilir. Otuz illik işğal dövründə Azərbaycanın xarici siyasəti əsasən münaqişənin ədalətli həllinə yönəlmişdi. Prezident İlham Əliyev son 20 ildə respublikamızın həqiqətlərini, artıq keçmişdə qalan Qarabağ probleminin gerçək mahiyyətini, ölkəmizin sülh istəyini beynəlxalq birliyin diqqətinə çatdırmaq üçün fəal diplomatiya apararaq müxtəlif formatlarda keçirilən görüşlərdə çoxsaylı müzakirələrə qatılıb. 44 günlük müharibədən və 23 saatlıq uğurlu lokal xarakterli antiterror tədbirlərindən sonra isə yeni reallıqlar yaranıb və çağırışlar dəyişib. Aydın məsələdir ki, yaranan yeni reallıqlar xarici siyasətimizdə də nəzərə alınır. Prezident İlham Əliyevin yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında söylədiyi geniş nitqində bildirdiyi kimi, indi isə - tarixi Zəfərimizdən sonra biz xarici siyasətimizdə daha sərbəstik. Dövlətimizin başçısı nitqində hazırkı strateji mərhələdə respublikamızın yürütdüyü xarici siyasət kursunun konturlarına diqqət çəkib.

## Azərbaycan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib

Biz dünyada ziddiyyətli proseslərin getdiyi, tez-tez böhranların baş verdiyi bir dönəmdə yaşayırıq. Belə bir təlatümlü dönəmdə ayrı-ayrı ölkələr çətin sosial-iqtisadi problemlərin məngənəsinə düşürlər. Prezident İlham Əliyev isə davamlı, məqsədyönlü, konkret hədəflərə hesablanan siyasət həyata keçirməklə ölkəmizin tarixinə yeni-yeni inkişaf salnamələri yazır. Ötən dövrdə Azərbaycan iqtisadi müstəqilliyini tam təmin edib. Bu gün ölkəmiz heç bir kənar qüvvədən, beynəlxalq maliyyə qurumlarından asılı deyil.

Öz növbəsində iqtisadi müstəqillik ölkəmizin siyasi müstəqilliyini şərtləndirir. Hazırda özünün güclü iqtisadi potensialına əsaslanan Azərbaycan dövləti xalqımızın, ölkəmizin milli maraqlarını qətiyyətlə qoruyur və tam müstəqil siyasi kurs həyata keçirir. Biz qonşu Ermənistanın timsalında müstəqilliyi formal xarakter daşıyan bir dövlət görürük. Bu ölkənin müstəqil yaşamağa nə iqtisadi potensialı, nə də siyasi iradəsi var. Buna görə də rəsmi İrəvan tez-tez oriyentasiyasını dəyişir və ayrı-ayrı siyasi qütblərin çətirləri altına sığınır. Bir vaxtlar Rusiyanın forpostu olan bu ölkə indi Şimal qonşumuzun üzləşdiyi məlum çətinliklər fonunda Qərbə üz tutub və oradan gələn təlimatlara, siyasi sifarişlərə uyğun davranışlar sərgiləyir. Azərbaycanın xarici siasət kursu isə sırf müstəqillik və suverenlik prinsiplərinə əsaslanır. Respublikamız öz siyasətində o mövqedən çıxış edir ki, ayrı-ayrı ölkələrlə və beynəlxalq təşkilatlarla münasibətlər bərabərhüquqlu əsaslarla qurulmalı və bütün tərəflərin qarşılıqlı maraqlarına xidmət göstərilməlidir. Ölkəmiz dostlarını özü seçir. Bizim siyasətimiz Ermənistandan fərqli olaraq hansısa mərkəzlərdə deyil, Bakıda müəyyənləşdirilir. Azərbaycan böyük və yaxud kiçik dövlətlər arasında fərq qoymur, bütün tərəflərə eyni münasibət bəsləyir.

Azərbaycanın suverenlik və müstəqillik prinsiplərinə əsaslanan xarici siyasət kursu gələcəkdə də eyni ardıcıllıqla davam etdiriləcək. Postmüharibə dövründə bir sıra Qərb dairələri, o cümlədən də Fransa kimi ölkələr, Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar yenə də ölkəmizə qarşı qərəzli davranaraq ikili standartlardan, selektiv yanaşmalardan çıxış edirlər. Məsələn, cari il yanvarın 24-də AŞPA-nın plenar iclası Azərbaycanın nümayəndə heyətinin etimadnaməsinin substantiv əsaslarla qəbul edilməməsinə çağıran qətnamənin lehinə səs verib. Halbuki belə bir bədnam qətnamənin qəbul edilməsinə hər hansı bir əsas yox idi. Azərbaycan bu qərəzli yanaşmanı cavabsız qoymadı. Öz növbəsində Azərbaycan Respublikasının Avropa Şurası Parlament Assambleyasındakı nümayəndə heyəti yanvarın 24-də qurumun iclasında bəyanatla çıxış edib. Bəyanatda bildirilir ki, AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib. Azərbaycanın nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib. Buradan da göründüyü kimi, heç bir beynəlxalq təsisat qərəzli yanaşmalarını ölkəmizə qəbul etdirə bilməz. Hər kəsin cavabı adekvat şəkildə veriləcək. "Müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər. Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib", - deyə Prezident İlham Əliyev vurğulayıb.




## Dünya birliyinin etimadı - ölkəmiz qlobal iqlim konfransına ev sahibliyi edəcək

Ölkəmiz qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirib. Yüksək inkişaf göstəricilərinə nail olan Azərbaycanın belə nəhəng tədbirləri təşkil etmək üçün müasir infrastruktura malik olması və təhlükəsizlik baxımından sabit ölkə kimi fəqlənməsi bütün dünya ictimaiyyətinə məlumdur. İndiyədək Azərbaycan bir sıra mötəbər beynəlxalq tədbirlərə böyük uğurla ev sahibliyi edib. Bu sırada "Eurovision - 2012"-ni, Birinci Avropa Oyunlarını, IV İslam Həmrəyliyi Oyunlarını xatırlaya bilərik. Cari ildə ölkəmizdə Beynəlxalq Astronavtika Konqresi böyük müvəffəqiyyətlə baş tutub. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir 50 ildən sonra ikinci dəfə Bakı şəhərində keçirilib.

Respublikamızın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi üçün seçilməsi Azərbaycan Prezidentinin növbəti təntənəli qələbəsidir. Bu, Qoşulmama Hərəkatına sədrliyimiz və BMT Təhlükəsizlik Şurasına üzvlüyümüzdən sonra xarici siyasətimizin ən böyük uğurudur. Eyni zamanda, son zamanlar Azərbaycana qarşı çirkin kampaniya aparan bəzi dairələrə tutarlı cavabdır. Azərbaycan özünün qətiyyətli siyasəti ilə bir daha bu spekulyasiyaları altüst etdi və ölkəmizin müsbət imicinin üzərinə kölgə sala bilməyəcəklərini sübuta yetirdi. COP29-a ev sahibliyi hüququnun Azərbaycana verilməsi respublikamızın beynəlxalq aləmdə böyük etimad qazandığını nümayiş etdirir. Ölkəmiz qlobal problemlərdən biri olan iqlim dəyişmələrinə qarşı səyləri səfərbər etmək və bu mübarizəyə töhfə verməklə növbəti dəfə dünyanın diqqət mərkəzində olacaq. COP29 tədbirində iştirak etmək üçün ölkəmizə 70 mindən çox qonağın gələcəyi gözlənilir. Eyni zamanda, beynəlxalq birlik qarşısında məsuliyyətini yaxşı başa düşən Azərbaycan hazırda qlobal iqlim konfransına ciddi hazırlıqlar görür. COP29 üçün geniş əhatə dairəsinə malik gündəlik müəyyənləşdirilib. Ölkəmiz ev sahibliyi edəcəyi qlobal konfransda iqlim çağırışları ilə bağlı həmrəyliyə nail olmaq niyyətindədir. İqlim çağırışları bütün ölkələri təhdid edir. Buna görə də Azərbaycan o mövqedən çıxış edir ki, qlobal təhlükəyə qarşı beynəlxalq birliyin səyləri əlaqələndirilməli və uzlaşdırılmış fəaliyyətlər həyata keçirlməlidir.

Qürurverici haldır ki, bu gün respublikamız Cənubi Qafqaz coğrafiyasının lider dövləti olmaqla yanaşı, həm də beynəlxalq aktora çevrilib. Dünyada Azərbaycanın indiki həssas dönəmdə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına verdiyi sanballı töhfələr, iqlim çağırışları da daxil olmaqla qlobal səviyyədə meydana çıxan problemlərə həssas yanaşma sərgiləməsi, beynəlxalq həmrəyliyin gücləndirlməsinə böyük səy göstərməsi yüksək dəyərləndirilir. Burada dövlətimizin, şəxsən Prezident İlham Əliyevin siyasi qətiyyətinin önəmini isə ayrıca qeyd etmək lazımdır. Hər zaman, hər yerdə Azərbaycanın milli maraqlarını qətiyyətlə qoruyan, ölkəmizi inamla inkişaf etdirən Prezident İlham Əliyev milli səviyyədə əvəzolunmaz Lider kimi qəbul edilir. Həmçinin Onun liderlik missiyası milli məzmunlu, qlobal əhəmiyyətli fəaliyyətlə assosiasiya olunur. Prezident İlham Əliyevin liderlik keyfiyyətləri Ona büytün dünyada böyük nüfuz qazandırıb. Bunu dövlətimizin başçısının həm İslam dünyasına, həm də Avropa İttifaqı (Aİ) məkanına daxil olan ölkələri birləşdirən təşkilatların Zirvə görüşlərinə fəxri qonaq qismində dəvətlər alması bir daha təsdiqləyir.

İndiyədək Avropa İttifaqının 10 üzv dövləti ilə starteji tərəfdaşlığa dair sənədlər imzalayan və paralel şəkildə dünyada İslam həmrəyliyinin güclənməsinə sanballı töhfələr verən Azərbaycanın müxtəlif qütbləri

## Bütün qitələrdə respublikamızın dostlarının sayı artır

təmsil edən beynəlxalq təşkilatlarda təmsilçiliyi yüksək səviyyədədir. Azərbaycan türk dünyasını birləşdirən Türk Dövlətləri Təşkilatının fəal üzvlərindən biridir. Ölkəmizin uğurlu sədrliyi dönəmində sıralarında 120 dövləti birləşdirən Qoşulmama Hərəkatının beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artdı. Hazırda isə ölkəmiz Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) və sürətlə inkişaf edən ölkələri bir araya gətirən BRIKS-lə əməkdaşlığın genişləndirlməsi istiqamətində fəal siyasət aparır. Bütün bu kimi məqamlara istinad edən Prezident İlham Əliyev bildirib ki, dostlarımızın bütün qitələrdə sayı artır. "Biz indi - İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Təbii olaraq, ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz yerindədir və daha da inkişaf edir və edəcək", - deyə dövlətimizin başçısı vurğulayıb.

***Mübariz FEYİZLİ***

---

# Ən az xarici borca malik ölkə

### Azərbaycanın potensial iqtisadi imkanları borcu bir gündə qaytarmağa imkan verir

Prezident İlham Əliyev yeddinci çağırış Milli Məclisin ilk iclasında bildirib ki, son illər ərzində xarici borcumuz ildən-ilə aşağı düşür və borcun həcmi ümumi daxili məhsulun ( ÜDM) cəmi 7,5 faizini təşkil edir. Dövlət başçısı vurğulayıb ki, ölkəmiz bütün əsas kreditləri qaytarıb və hazırda borc məmləği təqribən 5,3 milyard dollardır. Azərbaycanın potensial iqtisadi imkanları həmin borcu bir gündə qaytarmağa imkan verir. Ancaq inkişaf etmiş ölkələrin bəzilərində xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir.

Mövcud vəziyyət onu göstərir ki, Azərbaycan xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır.

## Azərbaycanın xarici borcu ÜDM-in 7,5 faizinə bərabərdir

Qeyd edək ki, 2024-cü il 1 iyul tarixinə Azərbaycanın xarici dövlət borcu, xarici ödənişləri üzrə öhdəliklər də nəzərə alınmaqla 5,3 milyard dollar ekvivalentinə bərabər olub. Bu, həcmdə borc portfeli ÜDM-in 10 faizindən də aşağıdır. Azərbaycan hazırda borcun vəziyyətinə görə, dünyanın ən sabit ölkələr sırasında yer alır. Ölkəmiz regionda xarici borcun ÜDM-də nisbətinə görə, ən yaxşı ölkələr qrupundadır. Ölkəmizdə borcun ÜDM-də payı 10 faizdən də aşağıdır. Beynəlxalq praktikada xarici borcun ÜDM-də nisbəti 50 faizi ötdükdə bu, təhlükəli hədd sayılır. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.

Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətindən xeyli yaxşı mövqedədir. Belə ki, Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistan xarici borcun həcminə görə, bu bölgədə ən təhlükəli ölkələr sırasındadır, bu ölkənin xarici dövlət borcu 2024-cü ilin birinci yarısında 12 milyard dollar olmaqla ÜDM-in 53 faizini təşkil edir. Borcun adambaşına düşən nisbətinə görə də Azərbaycan ən qənaətbəxş vəziyyətə malikdir. Məsələn, Ermənistanda adambaşına düşən borcun həcmi 3,6 min dollar təşkil edir ki, bu da dünyada ən pis göstəricilərdən biridir. Borcun ÜDM-ə nisbətinə görə, Gürcüstanın da borc yükü Azərbaycana nisbətdə xeyli yüksəkdir. Bu ölkənin xarici borcunun ÜDM-ə nisbəti 43 fazidən yuxarıdır. Gürcüstanda adambaşına düşən borcun həcmi 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına düşən borcun həcmi 540 dollardır.



## Strateji valyuta ehtiyatlarımız xarici borcu 13,8 dəfə üstələyir

Cənubi Qafqaz ölkələrində xarici borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi 73 milyard dollar olmaqla borcu 12,8 dəfə üstələyir. Digər region ölkələrindən Ermənistanda rezervlərin həcmi 5,3 milyard dolar olmaqla borcdan 2 dəfə azdır. Gürcüstanın strateji ehtiyatlarının həcmi isə 13,8 milyard dolar olmaqla təxmini olaraq borcla eyni məbləğə malikdir.

Xarici borcla bağlı digər bir məqam beynəlxalq bazarlarda yeni borc alma imkanlarının səmərəliliyi və ölkənin reytinqi ilə bağlıdır. Azərbaycanın ÜDM-ə nisbətdə aşağı borc səviyyəsi və yüksək strateji valyuta ehtiyatları ölkəmizin tədiyyə qabiliyyəti barədə beynəlxalq maliyyə bazarlarında olduqca müsbət rəy formalaşdırıb. Həmçinin ölkəmizdə ictimai-siyasi, iqtisadi və sosial sabitlik, aydın ifadə olunmuş siyasi iradə və perspektivlər xarici borclar üçün risk səviyyəsini aşağı salır. Belə ki, xarici maliyyə institutları borclarını azaldan ölkələrə növbəti borc paketi ayırarkən daha aşağı faizlə və uzunmüddətli şərtlərlə verir. Çünki, borcu qaytarma imkanları yaxşıdır. Bu baxımdan bu gün Dünya Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Səudiyyə Fondu və digər beynəlxalq institutlar Azərbaycana ən sərfəli kreditlər təklif edirlər. Azərbaycan həmin sərfəli təklifləri nəzərə alaraq "Böyük Qayıdışın" sürətlə icra olunduğu şəraitdə öz iqtisadi məqsədləri üçün səmərəli borclanmaya getməyi də istisna etmir.

## ABŞ və Avropa Birliyi ölkələrinin xarici borcu ÜDM-in 70 faizini ötüb

Hazırda inkişaf etmiş ölkələrdə də borcun həddi dayanmadan yüksəlməkdədir. Amerika və Avropada borc öhdəlikləri son bir ildə rekord həddə çatıb. ABŞ-ın dövlət borcu 35 trilyon dollarə ötüb. Eləcə də Avrozona regionunda da yüksək inkişaf etmiş dövlətlərin böyük bir qismində xarici borcun artımı müşahidə edilməkdədir. Fransa, Almaniya, Niderland, Belçika və digər ölkələrdə büdcələrdə həm büdcə kəsiri əmsalı yüksəlib, həm də borc öhdəlikləri artıb. Hazırda ABŞ və Avropa Birliyi ölkələrinin xarici borc yükü ÜDM-in 60-70 faizindən çoxdur. Bu, dünya üzrə ən təhlükəli göstərici hesab edilə bilər. Beynəlxalq Valyuta Fondunun metodologiyasına əsasən, xarici borcun ÜDM-ə nisbəti 50 faizi aşması "qırmızı xətti" ötmək anlamına gəlir və maliyyə-büdcə dayanıqlığına ciddi zərbə vura bilər. Borcun məbləğinin yüksək olması ölkənin ümumi xarici öhdəliklərini pisləşdirməklə yanaşı, milli iqtisadi təhlükəsizliyinə də mənfi təsir göstərir.




Xarici dövlət borcumuz kifayət qədər aşağı səviyyədədir və yeni borclanmaya getmək ölkəmiz üçün hansısa qayğı yarada bilməz. Hökumət xarici valyutada mühafizəkar borclanma siyasəti aparmaqda qərarlıdır, ancaq əlavə borc cəlb etmək üçün də müxtəlif ssenarilər nəzərdən keçirilir. Bununla əlaqədar xarici dövlət borcunun təxminən 10 milyard dollar səviyyəsinə qədər artırılması istisna olunmur. Əsas məqsəd ölkəmiz qarşısında duran böyük infrastruktur layihələrinin, dövlət əhəmiyyətli ümdə infrastruktur planlarının icrasıdır ki, bu sahəyə daxili mənbələrdən yönəldilən mənbələrlə yanaşı, əlavə resurslara ehtiyac vardır.

Ölkəmizin qarşısında duran müəyyən çağırışların, layihələrin həyata keçirilməsi prizmasından maliyyə kredit təşkilatları ilə əməkdaşlığı bir qədər genişləndirərək kreditlərin cəlb edilməsi məqsədəuyğun hesab olunub. Bunun da başlıca səbəbi azad edilmiş ərazilərin bərpa və quruculuğu işlərinin daha da sürətləndirilməsi, meydana çıxan zəruri infrastrukturların daha tez yaradılaraq istifadəyə verilməsi və bu bölgənin iqtisadi resurslarını iqtisadi dövriyyəyə cəlb edilməsinin tezləşdirilməsidir. Nəticədə bu siyasət daha səmərəverici olmaqla həmin bölgənin ölkə iqtisadiyyatına reinteqrasiyasını sürətləndirməklə iqtisadi inkişafa töhfə verəcək. Həmin bölgədən əldə edilən milli gəlirlərin dəyəri həmin borcun qısa zamanda

## Borclanma ilə bağlı təmkinli siyasət yürüdülür

qaytarılmasının təmin edilməsində də həlledici rol oynayacaq. Yəni alınan borc Qarabağ və Şərqi-Zəngəzurun qısa bir zamanda dirçəldilməsinin təmin edilməsində köməkçi rol oynamaqla bu bölgədə iqtisadi hərəkətliliyi tezləşdirəcək, insanların öz yurdlarına geri dönüşü daha geniş miqyas alacaq, daha qısa zamanda qayıdış mümkün olacaq. İnsanların məşğulluq imkanları daha dayanıqlı və təminatlı olacaq. Beləliklə, bu bölgədə yaranan əlavə dəyərlərin həcmi bir neçə il ərzində alınan borcu bir neçə dəfə üstələyəcək. Ona görə də, yeni borclanma gələcək reinteqrasiyanın daha tez və çevik formada həllinə kömək edəcək, azad ərazilərin iqtisadi resurslarının ixrac imkanlarını sürətləndirəcək.

***E.CƏFƏRLİ***

# Qərb Ermənistanı fərqli fondların köməyi ilə silahlandırır...

## Azərbaycanın tələbi: bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır...



**Ermənistan konstitusiyasına dəyişiklik edilməli, ATƏT-in Minsk qrupu ləğv olunmalıdır**

Qərbin Ermənistanın “vasitəsilə” Cənubi Qafqazda yeni situasiya formalaşdırmaq cəhdləri müşahidə edilməkdədir. Fransanın timsalında Aİ-nin, eləcə də ABŞ-ın əli ilə həyata keçirilən anti-Qafqaz planının yeni ştrixləri özünü tam şəkildə ortaya qoymaqdadır. Belə ki, Azərbaycana qarşı həyata keçirilən, lakin bütövlükdə, Cənubi Qafqazda sülhə və təhlükəsizliyə təhdid yaradan “silahlandırma” kampaniyasının miqyası genişləndirilir. Bu ilin yayında Aİ-nin fərqli strukturlarının Ermənistanın militaristləşdirməsi prosesinə qoşulmasının ardından, bu dəfə Vaşinqton eyni addımı atır - Ermənistana maliyyə yardımı etməklə onun silah almasını stimullaşdırır, bölgədə yeni təhdid yaradır.

**Məsuliyyəti pulu verənlər daşıyır...**

Xatırladaq ki, Avropa İttifaqı Şurası iyulun 22-də Avropa Sülh Fondundan (EPF) Ermənistan ordusuna 10 milyon avro dəyərində yardım paketini qəbul edib. Məsələnin mahiyyətinə keçməzdən əvvəl bəzi məsələlərə diqqət yetirək: 2021-ci ilin martın 22-də yaradılan Fondun 2021-2027-ci illər üçün təxminən 5 milyard avro büdcəsi formalaşdırılıb. Avropa Sülh Fondunun büdcəsi Avropa İttifaqına üzv dövlətlərin ianələri hesabına formalaşır. Fondun təsis məqsədi kimi Aİ-nin münaqişələrin qarşısını almaq, sülhü qorumaq və beynəlxalq sabitliyi və təhlükəsizliyi gücləndirmək qabiliyyətini artırmaq qeyd olunsa da, Fond daha çox təzyiq vasitəsi funksiyası kimi çıxış etməkdədir. Maraqlıdır ki, bəyan edilmiş “məqsədlərə uyğun olaraq” və Avropa Şurasının qərarına əsasən, Avropa ölkələri “tərəfdaşlarının” təhlükəsizlik və müdafiə qabiliyyətinin səviyyəsinin yüksəldilməsi üçün Aİ Fondu vasitəsilə hərbi texnika vermək “hüququna malikdir”. Bu məsələ Fondun yaradılmasının əsl səbəblərini ortaya çıxarır.

Beləliklə, Aİ Şurası məhz bu “kriteriya” söykənərək işğalçı dövləti maliyyələşdirir.

Eyni fikirləri ABŞ haqda da demək mümkündür - ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) Ermənistana maliyyə yardımının həcmini iki dəfədən çox - 120 milyon dollardan 250 milyon dollara qədər artıracaq. Bu addım fərqli istiqamətlərə yozulsa da, əsl niyyət ortadadır - USAID-in arxasında duran beynəlxalq şəbəkələrin, mərkəzlərin erməni məsələsini, onların mövcudiyyətini Cənubi Qafqazda davam etdirmək və erməni kartından öz məqsədləri üçün istifadə etmək istəyirlər. Bütün hallarda məsələnin kökü bu ilin aprelin 5-də imzalanan üçtərəfli razılaşmaya: ABŞ-Aİ-Ermənistan danışıqlarının nəticələrinə “dayanır”. Məhz həmin görüşdə verilən qərarlar bu gün




“Sülh Fondu”, “USAID” kimi “dəyənək təşkilatlar”ın əli ilə reallaşdırılır.

Prezident İlham Əliyev VII çağırış Milli Məclisin ilk iclasındakı çıxışında bildirib ki, Ermənistana Amerikadan indi 250 milyon dollar pul verilir. O puldan onlar öz daxili məqsədlərinə istifadə edəcəklər, qənaət olunan pula isə silah alacaqlar, bizi öldürməyə: “Bu məsuliyyəti kim daşıyır və kim daşıyacaq? O pulu onlara verən. O cümlədən dırnaqarası “Avropa Sülh Fondu”. Görün, bu riyakarlığın səviyyəsinə baxın. Silah üçün nəzərdə tutulan fond, ona Sülh Fondu deyirlər, Ermənistan ondan istifadə edir, Fransadan pulsuz silah alır”.

Göründüyü kimi, ayrılan maliyyələr heç də “Sülh Fondun“un adına uyğun olaraq “sülhə” deyil, qarşıdurmaların miqyasının daha da genişlənməsinə xidmət göstərir. Fransa bu yolla özünün regiona daxil olmaq şanslarını yoxlayır - amma bu mümkün deyil. Azərbaycanın qətiyyəti və qüdrəti bütün oyunların iflasa uğradılması üçün hər zaman səfərbərdir.

**Bizim şərtlərimiz yerində qalır**

Azərbaycanın bölgənin inkişafı ilə bağlı addımları realdır - biz, Qafqazı əməkdaşlıq, tərəfdaşlıq platformasına çevirməyi planlaşdırırıq. Bunun üçün isə ilkin şərt məhz sabitlik və təhlükəsizlik, bir sözlə dayanıqlı, davamlı sülhün formalaşdırılmasıdır. Bu sülhün formalaşması üçün isə bütün tərəflər öz iradəsini ortaya qoymalıdır - xüsusilə, Ermənistan Azərbaycanın irəli sürdüyü haqlı tələblərlə razılaşmalıdır.

İlk növbədə Ermənistanın mövcüd Konstitusiyasında dəyişikliklər edilməli, həmin sənəddə ölkəmizin ərazi bütövlüyünə yönələn qəsd aradan qaldırılmalıdır. Bəlli olduğu kimi, Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında “Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli “Ermənistan SSR-ə yenidən birləşmək haqqında” birgə qondarma qərardan bəhs olunur. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına idldia ortaya qoyur. Bu isə sülhün bərqərar olmasına real maneəgdir.

Eyni zamanda, artıq heç bir funksionallığı qalmayan ATƏT-in Minsk qrupu ləğv edilməlidir. 1994-cü ildə keçirilən ATƏM-in Budapeşt Zirvə toplantısı zamanı artıq tarixə qovuşmuş “münaqişənin” həlli ilə bağlı “vasitəçi” qismində çıxış etməli olsa da, ötən 30 il ərzində yalnız fəaliyyətsizliyi ilə yadda qaldı. Bu dövr ərzində yalnız Azərbaycana qarşı fərqli standartlardan çıxış edən ATƏT-in Minsk Qrupu ədalətin bərpası üçün heç bir təsiredici vasitələrdən istifadə etmədi. İllər boyu yalnız turistik səfərləri ilə yadda qalan, vasitəçi olsa belə, Ermənistanın maraqlarının açıq müdafiəçisinə çevrilən, hətta işğalçı ilə işğala məruz qalmış arasında bərabərlik işarəsi qoymağa çalışan ATƏT-in Minsk qrupu hüquqları pozulan azərbaycanlıları görməzdən gəldi. Aparılan danışıqlarda Ermənistana təzyiq göstərməyi, etdiyi cinayətlərə görə bu ölkədən hesab tələb etməyi yada belə salmayan Minsk qrupunun fəaliyyətsizliyi isə həm də beynəlxalq hüquqa qarşı qurumun hörmətsizliyi idi.

44 günlük müharibə ilə başa çatan “münaqişə” həm də ATƏT-in Minsk qrupunu tarixin arxivinə yolladı. Artıq tərəflər vasitəçisiz bir ortamda razılaşmanı əsas götürürlər - son reallıqlar bu quruma ehtiyacın qalmadığını bir daha faktiki olaraq ortaya qoyur. Prezident İlham Əliyev çıxışında bildirib ki, bizim şərtlərimiz yerində qalır: “Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır”.

*P.İSMAYILOV*

# Ermənistan hüquqi məsuliyyətini dərk etməli, hüquqi öhdəliyini yerinə yetirməlidir

## Maddi ziyan fərdi və ictimai zərərin kompensasiyasını nəzərdə tutur

**Ermənistan öz ərazisindən Azərbaycanın xeyrinə müəyyən güzəştləri özündə ehtiva edən təzminat razlışmasına gedə bilər**

Hüquq anlayışı lokal çərçivədə fərdi münasibətlərin tənzimlənməsi üçün əsas sayıldığı kimi, beynəlxalq müstəvidə də analoji mahiyyəti kəsb edir. Başqa sözlə, dövlətlərin beynəlxalq hüququn subyekti kimi mövcud hüquqi rejim çərçivəsində, qüvvədə olan qaydalara uyğun davranış sərgiləməsi sadəcə bir seçim deyil - bu onun üzərinə götürdüyü və yerinə yetirməyə borclu olduğu öhdəlikdir. Bu yanaşmaya əks mövqe sərgiləmək isə mövcud hüquqi nizamın qaydasını pozmaq deməkdir. Beləliklə, qeyd edilən davranış qeyri-qanuni vəziyyət yaratdığı təqdirdə bu, dövlətin üzərnə götürdüyü öhdəliyi yerinə yetirməməmsi anlamına gəlir - belə vəziyyətdə isə həmin dövlət vurduğu zərərin qarşılqlığını ödəməlidir. Yəni, beynəlxalq hüquqi nizam dövlətin beynəlxalq öhdəliklərini pozaraq törətdiyi qeyri-qanuni əmələ görə təzminat ödəməsini nəzərdə tutur. Vurğulanan məsələ ilə bağlı ştrixlər XX əsrdən etibarən beynəlxalq pozitiv hüquqda dolğun ifadəsini tapmaqdadır - bunun adına isə təzminat deyilir...

**Beynəlxalq daimi ədalət məhkəməsi təsdiq edir...**

Təzminat məsələsi tarix boyu dövlətlərarası münasibətlərdə fərqli spektlər üzrə, daha çox isə ticarət müstəvisində özünü büruzə verib. Tarixdə çoxlu hallar var ki, bir dövlət digər dövlətin ərazisində onun nümayəndələrinə və ya təmsilçilərinə, hətta ticarət adamlarına belə dəyən zərərin qarşılığını tələb edib - beynəlxalq hüquqi nizamın bu məsələyə yanaşması sui-istifadə hallarının qarşısını almağa və ümumi qaydaların formalaşmasına töhfə verməyə xidmət edir. Beynəlxalq daimi ədalət məhkəməsi 1928-ci ildə təzminatın dəyən zərərin nəticələrinin aradan qaldırılmasını və zərərdən əvvəlki vəziyyətin bərpasını nəzərdə tutduğunu təsdiq edir. Artıq dövlət qeyri-qanuni fəaliyyətin doğurduğu nəticələrin aradan qaldırılması üçün təzminat ödəməyə borclu hesab edilir.

**Ermənistanın beynəlxalq məsuliyyəti...**

30 il davam etmiş işğal prosesi, Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsi



beynəlxalq hüququn fundamental prinsiplərini pozan və beynəlxalq hüquq tərəfindən qadağan edilmiş bir təcavüz aktıdır. Ermənistan silahlı qüvvələrinin Azərbaycan sərhədlərini keçməsi, Azərbaycan ərazilərində döyüşməsi və qeyri-qanuni erməni hərbi birləşmələri ilə hərbi əməliyyatları planlaşdırması təcavüzün bariz nümunəsidir. Əslində, 2020-ci il 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın bütün hərbi potensialı ilə məğlubiyyətini etiraf etməsi həm də təcavüzün etirafı idi. Bu, Ermənistanın beynəlxalq məsuliyyətini təsdiqləyir, onun beynəlxalq öhdəliklərini pozaraq qeyri-qanuni vəziyyət yaratdığını və bu vəziyyətin doğurduğu nəticələrə görə məsuliyyət daşıdığını göstərir. Başqa cür desək, suveren Azərbaycan ərazisində qeyri-qanuni işğal nəticəsində törədilmiş dağıntılara görə Ermənistan məsuliyyət daşıyır. Çünki işğalçı dövlət, yəni Ermənistan işğal edilmiş ərazi üzərində suverenliyə malik deyildi, işğal rejimi çərçivəsində fəaliyyət göstərirdi və bu ərazilərin işğalının müvəqqəti hal olmasını anlayırdı (hətta danışıqlar prosesində işğal edilmiş rayonların qaytarılması təklifi müzakirə edilirdi). Lakin Ermənistan bu müvəqqəti vəziyyətdən “yandırılmış ərazi” siyasəti həyata keçirmək və azərbaycanlıların qayıdış hüququna mane olmaq üçün istifadə etdi.





**Ermənistan azərbaycanlıların tarixi və mədəni izini silmək üçün dağıdıcı fəaliyyətlə məşğul olub**

Ermənistanın işğalına son qoyulması işğal edilmiş və vaxtilə bir milyon azərbaycanlının yaşadığı suveren Azərbaycan ərazilərində törədilmiş dağıntıların həcmini üzə çıxardı və cəmiyyətdə böyük sarsıntı yaratdı. Şəhər və kəndlərdə bütün tikililər, evlər, xəstəxanalar, məscidlər, mədəniyyət abidələri hətta qəbirlər yerlə-yeksan edilmişdir. Belə hallara məhz orta əsrlərdə, cəngəllik qanunlarının hökm sürüdüyü vaxtlarda rast gəlinirdi. Halbuki, beynəlxalq hüquq faktiki olaraq işğalçı dövlətin nəzarəti altında yerləşən ərazilərin işğal rejimi altında olduğunu və işğal etmiş dövlətin orada baş verənlərə görə məsuliyyət daşıdığını vurğulayır, eyni zamanda, mülkiyyətin, mədəni irsin, tarixi abidələrin, xəstəxanaların və sairə dağıdılmasını qadağan edir. Ermənistanın maddi və mənəvi abidələri, ətraf mühiti, təbiəti qorumaq öhdəliyi vardı, lakin Ermənistan onları qorumaq üçün hər hansı addım atmışdırmı? Sual, əlbəttə, ritorikdir, çünki dağıntıların həcmi onu göstərir ki, Ermənistan dövləti məqsədyönlü şəkildə azərbaycanlıların bütün tarixi və mədəni izini silmək üçün bu dağıdıcı fəaliyyəti planlı şəkildə həyata keçirib.

**Ermənistan təzminat ödəmək üçün...**

Beləliklə, beynəlxalq hüquqa uyğun olaraq Ermənistanın təzminat ödəməsi hüquqi öhdəliyin yerinə yetirilməsidir. Hər iki dövlət arasında sülh və barışıq ilk növbədə maddi və mənəvi ziyanın ödənilməsini tələb edir. Əgər mənəvi ziyan Ermənistanın təcavüz və işğalçılıq siyasətinə görə Azərbaycan xalqından üzr istəməsini və ərazi iddialarından hüquqi və siyasi müstəvidə birdəfəlik imtinasını ehtiva edirsə, maddi ziyan fərdi və ictimai zərərin kompensasiyasını nəzərdə tutur. Ermənistanın işğal etdiyi ərazilərdə vurduğu zərərin həcmi Vətən müharibəsindən dərhal sonra hesablanıb. Sanki Livan boyda bir ölkənin darmadağın edilmiş ərazisi yenidən qurulmalıdır. Ermənistanın təzminat ödəməsi bir neçə formada həyata keçirilə bilər:



- XX əsrin böyük münaqişələrinin yekununda məğlub olmuş təcavüzkar dövlətlərin zərərin ödənilməsi ilə bağlı öhdəlikləri sülh müqaviləsində öz əksini tapıbdır. Ermənistanla sülh danışıqları mütləq şəkildə Ermənistanın təzminat məsələsini əhatə etməli, onun vurduğu zərərin bərpa edilməsi üçün ödəyəcəyi məbləğin miqdarı və ödəniş formaları müəyyən olunmalıdır.
- Əgər Ermənistanın maliyyə durumu buna imkan vermirsə beynəlxalq təzminat fondu yaradıla bilər və Ermənistan “dostları” həmin fond vasitəsilə Ermənistanın təzminatının ödənilməsində iştirak edə bilər.
- Eyni zamanda, Ermənistan öz ərazisindən Azərbaycanın xeyrinə müəyyən güzəştləri özündə ehtiva edən təzminat razlışmasına gedə bilər. Bu, Ermənistanın müəyyən əraziləri üzərində suveren hüquqlarından Azərbaycanın xeyrinə imtina etməsini və ya suveren ərazilərində müəyyən funksional suveren hüquqların, yəni müəyyən fəaliyyət sferalarının uzunmüddətli konsessiyasını özündə ehtiva edə bilər.

# Kim daha çox maaş alır?

## Ölkə üzrə orta aylıq əməkhaqqı 1000 manatdan yüksəkdir

2024-cü ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 8,3 faiz artaraq 1002,4 manat təşkil edib. Orta aylıq əməkhaqqı neft-qaz sektorunda 3782,9 manat, qeyri neft-qaz sektorunda 950,6 manat olub. Dövlət müəssisələrində çalışan işçilərin əməkhaqları 958,7 manat, özəl müəssisələrdə isə 1048,5 manat olub.İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Mədənçıxarma sənayesi nominal əməkhaqqı məbləğinə görə, ilk yerdə dayanır. Bu sektorda orta maaş 3632 manat təşkil edir. Maliyyə və sığorta fəaliyyəti ilə məşğul olanların maaşı isə qeyd edilən dövrdə 2827 manat olub. Peşə, elm və texniki fəaliyyət bölməsində 1718 manat, informasiya və rabitə sektorunda 1704, dövlət idarəetməsi və müdafiə sektorunda 1390 manat, nəqliyyat və rabitədə 1360 manat təşkil edib.

### Ən yüksək əməkhaqqı Xankəndidə...

Orta aylıq əməkhaqqının şəhər və rayonlar üzrə bölgüsünə gəlincə, ilk dəfə olaraq paytaxt Bakı şəhəri digər bölgələrdən geri qalıb. Belə ki, əməkhaqqının nominal məbləğinə görə, Xankəndi şəhəri 1309 manatla Bakını üstələyib. Paytaxtda həmin məbləğ 1269 manat təşkil edib. Sonrakı yerlərdə 1074 manatla Daşkəsən rayonu, 978 manatla Ağdərə və 908 manatla Şuşa, 872 manatla Zəngilan rayonu dayanır. Sumqayıt şəhərində həmin göstərici 869 manat, Naxçıvanda 857 manat, Qubadlı və Xocalıda 814 və 753 manat təşkil edib. Nominal əməkhaqqının ən aşağı olduğu rayon 532 manatla Qaxdır.

Orta aylıq əməkhaqqının artmasına yanvar-iyul aylarında ölkədəki əlverişli inflyasiya rəqəmləri də mühüm təsir göstərib. Belə ki, 2024-cü ilin 7 ayda istehlak bazarında qiymətlərin dəyişməsində ciddi artım tendensiyası baş verməyib, inflyasiya ötən ilin eyni dövrü ilə müqayisədə 1,3 faiz səviyyəsində qərarlaşıb. Nəticədə əhalinin gəlirləri inflyasiya göstəricini 4 dəfə üstələyib. Bu isə müxtəlif sahələr üzrə orta aylıq əməkhaqqının yüksəlməsində əhəmiyyətli rol oynayıb. Hazırda inflyasiyanın artımı üçün ciddi fundamental əsasların olmadığı müşahidə edilir ki, bu amil 2024-cü ilin sonunda əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artımına imkan yaradır.

Orta aylıq əməkhaqlarının artmasında ölkəmizin maliyyə imkanlarının yaxşılaşması və dövlətin yürütdüyü sosial siyasət tədbirləri ilə yanaşı, əhalinin real gəlirlərinin yüksəlməsi, qeyri-leqal əmək bazarının leqallaşdırılması və iş yerlərinin rəsmiləşdirilməsi, şəffaflığını artırılması və digər tədbirlərin mühüm rolu var. Bu tədbirlər sayəsində dövriyyədən kənarda qalan vəsaitlərin dövriyyəyə cəlb edilməsi iş yerlərində gəlirlərin artmasını və əməkhaqqının yüksəlməsini təmin edir.

### 2025-ci ildə 1080 manat...

Hökumətin iqtisadi ssenarilərinə əsasən, orta aylıq əməkhaqqının məbləği 2025-ci ildə 1080 manat, 2026-cı ildə 1156 manat, 2027-ci ildə 1237 manat, 2028-ci ildə isə 1327 manat təşkil edəcək. Digər hesabatlarda bu göstəricilərin daha yüksək olacağı ehtimal olunur. Belə ki, beynəlxalq institutların da hesabatlarında Azərbaycanın sosial-iqtisadi göstəricilərindəki dinamika daha artım fazilәri ilə əks olunub. Nüfuzlu iqtisadi statistika portalı olan “Trading Economics”in bu yaxınlarda açıqladığı sənəddə Azərbaycanda orta aylıq əməkhaqqı ilə bağlı proqnoz ümidvericidir. Nəşrin analitiklərinin qənaətinə görə, 2024-cü ilin dördüncü rübünün yekununda Azərbaycanda orta aylıq əməkhaqqı üzrə proqnoz 1040 manata yüksələcək.




### Orta aylıq əməkhaqqı artımı pensiyaların da artmasına səbəb olacaq

Orta aylıq əməkhaqqının artımı pensiyaların artmasında da əsaslı rol oynayır və bu baxımdan 2025-ci ildə pensiyalardakı artım məbləği bu göstəriciyə əsasın müəyyənləşəcək. Belə ki, orta aylıq əməkhaqqının 10 faiz artması pensiyaların da eyni rəqəm üzrə artımını təmin edəcək.

Hökumətin ortamüddətli dövr üzrə hədəflərində ölkədə yüksək inkişafın və iqtisadi artımın cəmiyyətin bütün üzvlərinin sosial rifahının yaxşılaşmasına, iqtisadiyyat inkişaf etdikcə vətəndaşların gəlirlərinin, o cümlədən əməkhaqlarının artırılaraq layiqli həyat səviyyəsi təmin edilməsi, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılması nəzərdə tutulub. Strateji prioritetlər dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət üzrə inkişaf çərçivəsinə uyğun olaraq əməkhaqqı artımlarının bütün sektorları əhatə etməsi hədəflənib. Bu siyasət tədbirləri üzrə xalis minimum əməkhaqqının xalis orta aylıq əməkhaqqına nisbətinin məqbul səviyyəsi qorunması da əsas sosial çağırış kimi qarşıya qoyulub. Bu istiqamətdə əsas istiqamətlərdən biri kimi əhalinin işlə təminatının yaxşılaşdırılması və gəlirəldə etmə mənbələrinin daha da gücləndirilməsi, özəl sektorda yeni iş yerlərinin yaradılması, məşğulluğu təşviq edən sahibkarlıq fəaliyyətinin stimullaşdırılması da diqqətdə saxlanılacaq. Xüsusilə də regionlarda

kiçik və orta sahibkarlığın, eləcə də özünüməşğulluğun inkişafına zəruri şərait

yaradılmaqla əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunacaq ki, bu da ümumilikdə, minimum və orta aylıq əməkhaqqı artımlarını təmin etməklə aradakı nisbəti də azaldacaq.

*E.CƏFƏRLİ*

# BMT “hərəkətsiz” quruma çevrilir?

## Dünyada qlobal problemlərin həlli üçün effektiv struktur tələb olunur



Nardar BAYRAMLI

Birləşmiş Millətlər Təşkilatının (BMT) strukturlarında islahatların aparılması məsələsi uzun müddətdir ki, dünya ölkələrinin gündəmindədir. Xüsusilə, beynəlxalq müstəvidə mövcud qlobal problemlər BMT Təhlükəsizlik Şurasında yeniliklərin edilməsini ciddi zərurətə çevirib. Bu zərurət BMT Baş Assambleyasının 79-cu sessiyası zamanı bir daha vurğulanıb. Belə ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan sessiyada çıxışı zamanı bildirib ki, BMT son illərdə missiyasını yerinə yetirməkdə çətinlik çəkir. Onun fikrincə, BMT getdikcə daha passiv, hərəkətsiz bir quruma çevrilir. Ərdoğan söyləyib ki, müxtəlif regionlarda baş verən hadisələr də bunu göstərir.

**Hakan Fidan: BMT-də qütbləşmənin qarşısını almaq üçün yollar hazırlanmalıdır**

Türkiyənin xarici işlər naziri Hakan Fidan isə 79-cu sessiya çərçivəsində təşkil olunan “Gələcəyin zirvəsi” adlı iclasda deyib ki, BMT artan təhlükələrə qarşı liderlik nümayiş etdirə bilmir. Qlobal problemlərin ümumi həlli üçün effektiv struktur tələb olunur. Beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin “tarixi sınaqdan” keçdiyini qeyd edən Fidan onların böhran və münaqişələrə həll yolu tapmaq imkanlarının azaldığını vurğulayıb: “Qlobal problemlərin ortaq həlli üçün effektiv struktura ehtiyac var. Bu strukturun daha əhatəli və çoxtərəfli olması zəruridir. BMT-də və xüsusilə BMT Təhlükəsizlik Şurasında əhatəli islahatlara ehtiyac var. BMT-də qərarvermə mexanizmləri daha demokratikləşdirilməli və qütbləşmənin qarşısını almaq üçün yollar hazırlanmalıdır. Beynəlxalq sülh və təhlükəsizliyi məhdud sayda ölkələrin “imtiyazlı qrup”unun əlinə vermək olmaz”. Nazir çıxışı zamanı qlobal bərabərsizlik və ədalətsizliyin artdığına, bunların isə islamofobiya və ksenofobiyaya yol açdığına diqqət çəkib.

Məlumdur ki, BMT Təhlükəsizlik Şurası 1945-ci ildə yaradılıb. Quruma beş daimi üzv - ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Çin və 10 qeyri-daimi üzv daxildir. Ümumiyyətlə, BMT daxilində islahatlardan və təşkilatın beynəlxalq hadisələrə, proseslərə effektiv təsir mexanizmlərinin yaradılmasından bəhs olunarkən bir sıra məqamlara nəzər salmaq lazımdır. Bunlar, ilk növbədə, BMT Nizamnaməsində və Təhlükəsizlik Şurasının strukturunda dəyişikliklərin edilməsidir. Qeyd etdiyimiz kimi, ötən dövr ərzində dünyada baş verən hadisələr BMT-də islahatların zəruri olduğunu bir daha təsdiqləyir. Çünki təşkilat faktiki olaraq hegemon güc mərkəzlərinin geosiyasi inhisarındadır. Xüsusilə də, Təhlükəsizlik Şurasında yer alan daimi üzvlər istədikləri vaxt hansısa qərara veto qoya bilirlər. Onlar veto hüququndan istifadə edərək subyektiv şəkildə öz maraqlarına uyğun olmayan məsələlərin qəbulunu əngəlləyirlər. Burada beynəlxalq hüququn subyekti, BMT-nin üzvü olan digər müstəqil dövlətlərin rəyləri, mövqeləri, demək olar ki, nəzərə alınmır. Bundan əlavə, BMT Təhlükəsizlik Şurasında hərbi-siyasi və strateji-təhlükəsizlik məsələləri ilə əlaqədar qərar qəbul edərkən ikili standartlara yol verilir. Bu barədə kifayət qədər nümunə var. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin dərhal icra edilməsi, sülhə məcburetmə mexanizmlərinin tətbiqi ilə əlaqədar Bosniya və Herseqovina, Yuqoslaviya, Liviya və digər presedentlər mövcuddur.



BMT Təhlükəsizlik Şurasının keçmiş Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi 4 qətnamənin 27 il ərzində yerinə yetirilmədiyi halda bir sıra münaqişə və böhranlarla bağlı qəbul edilən qətnamələrin icrasında çeviklik müşahidə olundu. Belə nümunələrin olmasına baxmayaraq, Azərbaycan uzun müddət qərəzli yanaşma ilə üzləşdi. Söhbət ölkəmizin 30 ilə yaxın işğal altında qalmış ərazilərindən Ermənistan silahlı qüvvələrinin çıxarılması ilə əlaqədar təsdiq edilmiş 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrin yerinə yetirilməməsindən gedir. Əlbəttə ki, bu fakt Birləşmiş Millətlər Təşkilatının nüfuzuna, reputasiyasına zərbə, beynəlxalq hüquq normalarına hörmətsizlik, laqeydlik və etinasızlıq idi. Azərbaycan bu ədalətsizliyi öz gücü ilə aradan qaldırdı, 2020-ci ildə hərbi-siyasi resursları vasitəsilə münaqişəni həll etməklə beynəlxalq hüquq normalarının tələblərinin yerinə yetirilməsini təmin etdi. Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin Azərbaycanın özü tərəfindən icra olunması BMT-nin təsis edildiyi vaxtdan bu günə qədər dünyada ilk belə haldır.

**“Dünya beşdən böyükdür” çağırışına Azərbaycandan dəstək**

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurasında islahatların aparılması təklifi ilə ilk olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib. BMT Baş Assambleyasının tribunasından “Dünya beşdən böyükdür!”, - deyən Ərdoğan bu yöndə təşəbbüslərini müxtəlif platformalarda da səsləndirib. Türkiyə Prezidentinin fikrincə, BMT Təhlükəsizlik Şurasının inklüziv islahatı təcili ehtiyacdır. “Beş ölkə arasında bəşəriyyətin taleyini tələyə salan hazırkı nizam davamlı deyil”, - deyə Rəcəb Tayyib Ərdoğan bəyan edib.

Nəzərə almaq lazımdır ki, üzv ölkələrin iştirakçılığı və beynəlxalq hüququn təmin olunması ilə dünyada sülh və iqtisadi rifah naminə əməkdaşlıq BMT-nin əsas missiyalarından biridir və məhz sadalanan meyarlar qlobal səviyyədə uzunmüddətli təhlükəsizliyin əsasını təşkil edir. Azərbaycan Prezidenti İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin yenidən işlənməsini təklif edib. Dövlətimizin başçısı İslam Əməkdaşlıq Təşkilatının və Qoşulmama Hərəkatının üzvü olan ölkələrin də bu qurumda təmsil olunmasının vacibliyini vurğulayıb. Ötən ilin yanvar ayında Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisinin ölkəmizə baş tutan səfəri çərçivəsində mətbuata verdiyi Bəyanatında Prezident İlham Əliyev deyib: “Hesab edirəm ki, Təhlükəsizlik Şurasının tərkibi genişləndirilməlidir. Bir daimi yer mütləq İslam Əməkdaşlıq Təşkilatının üzvünə verilməlidir və İslam Əməkdaşlıq Təşkilatı özü məsləhətləşmələr əsasında bu namizədliyi irəli sürməlidir. Digər daimi yer Qoşulmama Hərəkatına verilməlidir və Qoşulmama Hərəkatına sədrlik edən ölkə bu yerə sahib olmalıdır. Hesab edirəm ki, bu, ədalətli olar”.

**BMT Təhlükəsizlik Şurasında necə dəyişiklik etmək olar?**

BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmlərinin işlənməsində, konfliktlərin həllində beynəlxalq hüquq, regional və qlobal təhlükəsizliyin prioritetləri meyar olaraq götürülməli, mövcud münaqişələrin qarşısının alınması və ya daha da alovlanmasının qarşısının alınması üçün çevik mexanizmlər işlənilməlidir. Bu qabaqlayıcı mexanizmlərin işlənməsi beynəlxalq hüquq, regional və qlobal təhlükəsizlik aspektləri və münaqişələrin həlli yolları nəzərə alınmaqla müəyyənləşməlidir.

Ümumilikdə, bu qurumda hansı halda dəyişiklik aparmaq, islahatlar həyata keçirmək mümkündür?

Beynəlxalq ekspertlərin də dediyi kimi, bunun üçün BMT Nizamnaməsinə dəyişikliklərin edilməsi lazımdır. Nizamnaməyə dəyişikliklər BMT Baş Assambleyası tərəfindən qəbul olunur. Amma bunun üçün üçdə iki səs çoxluğu tələb edilir. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Baş Assambleyada qəbul olunmuş dəyişikliklər Təhlükəsizlik Şurası təsdiq etməlidir. Bu o deməkdir ki, əgər Baş Assambleya Təhlükəsizlik Şurası və onun üzvləri ilə bağlı Nizamnaməyə dəyişikliklər edərsə, buna qurumun daimi üzvləri də səs verməlidir. Əslində, Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması ilə bağlı hansısa dəyişiklik mümkün görünə bilər. Amma veto hüququndan istifadənin ləğv edilməsi və hansısa daimi üzvün təşkilatdan xaric edilməsi real deyil. Çünki həmin dövlətin özünə qarşı qərarı qəbul edəcəyi inandırıcı deyil.

Artıq dünyanın bir çox dövlətləri BMT-də islahatların aparılmasının zəruriliyini açıq şəkildə vurğulayırlar. Çünki BMT-nin dünyada nüfuzunu qorumaq naminə islahatların alternativi yoxdur.

# Avropanın gender modelinə keçmək istəsək...

## Ailə institutumuzun təməli yerlə-yeksan olar!

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti üzrə hazırlanmışdır**

Qədim zamanlardan Azərbaycanda qadına hörmətlə yanaşılıb. Buna misal olaraq, birinci dəfə müstəqilliyimiz elan edildikdən sonra hökumətin həyata keçirdiyi tədbirlərdən biri Şərqdə ilk dəfə olaraq qadınlara kişilərlə bərabər hüquqlar, həmçinin seçkilərdə iştirak etmək hüququnun verilməsini göstərə bilərik. Bu gün də dövlətimiz gender bərabərliyi, qadınların cəmiyyətdə öz yerini tutması üçün çalışır və bütün sahələrdə qadının rolunu vurğulayır.

Gender bərabərliyinə nail olmaq və qadın hüquqlarının daha səmərəli müdafiəsi məqsədilə dövlət milli mexanizmlərin yaradılması ilə yanaşı, bu sahədə QHT-lərin fəaliyyəti üçün də əlverişli şərait yaradıb. Hazırda Azərbaycan Respublikasında qadın problemləri ilə məşğul olan çoxsaylı QHT-lər mövcuddur. Yerli və beynəlxalq QHT-lər gender bərabərliyinin təmin olunması və qadınların vəziyyətinin yaxşılaşdırılması istiqamətində həm qanunvericilik aktlarının, həm də inzibati tədbirlərin hazırlanması və həyata keçirilməsinə fəal cəlb edilir. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi öz növbəsində yerli və beynəlxalq QHT-lərlə sıx əməkdaşlıq edir.



**Ölkəmizdə gender bərabərliyi tamhüquqludur**

Mövzu barədə “Yeni Azərbaycan”a danışan sosioloq Sahib Altay bildirib ki, Azərbaycanda ictimai həyatın siyasi sferalarında qadın və kişilərin hüquq bərabərliyi təmin edilir: “Ölkəmizdə gender bərabərliyini pozan, qadınlara qarşı ayrı-seçkiliyə səbəb olan qanun mövcud deyil. Azərbaycan dünyəvi və hüquqi dövlətdir. Dövlət müstəqilliyimiz bərpa edildikdən sonra ilk illər xalqımız üçün ağır keçsə də, Azərbaycan inkişaf yoluna qədəm qoyub. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda gender bərabərliyinin qorunması üçün ciddi addımlar atılıb, vacib istiqamətlər müəyyənləşdirilib. İndi ölkəmizin idarəçilik sistemində qadınların böyük pay sahibi olduğu açıq-aşkardır. Hazırda Azərbaycanda qadınlar dövlət və özünüidarətmə orqanlarında, eləcə də özəl sektorda yüksək vəzifələrə sahibdirlər. Vətəndaş cəmiyyətlərində, idman yarışlarında, beynəlxalq turnirlərdə də qadınların rolunu danmaq olmaz. Bir sözlə, Azərbaycan hüquqi və dünyəvi dövlət kimi inkişaf etməkdədir və ölkəmizdə gender bərabərliyi tamhüquqludur. Xanımların müxtəlif qurumlarda təmsil olunmaları, rəhbər vəzifələrdə çalışmaları Azərbaycanda gender balansının qorunduğunu təsdiq edir. Ölkədə məqsədyönlü şəkildə gender siyasəti aparılır və gender balansının tarazlaşdırılması dövlətin diqqət mərkəzindədir. Sözsüz ki, dövlətin və cəmiyyətin idarə olunmasında qadınların rolunun artırılması vacib məsələlərdəndir”.

**Kişilər bərabər ailə modelinə üstünlük verirlər**

Ekspertin sözlərinə görə, ailə modelləri cəmiyyətin özünün yaratdığı qanunlar çərçivəsində idarə olunur: “Cəmiyyət bunu yaradırdı, idarə edirdi, nəzarət və dəstək mexanizmi mövcud idi. Bunlar bir-birilərinə nəzarət edib idarə edirdilər və ailələrdə bugünkü problemlər ortaya çıxmır, uşaqlar da nəzarətdən kənarda qalmırdı. İndi o böyük icmaların aradan qalxması hazırda problemlər yaradır. Əvvəlki ailələrdə qohumlar bir-birilərinə dəstək verirdilər.



Kişilər arasında sorğu keçirərkən onların fikirlərindən belə çıxdı ki, kişilər daha çox bərabər ailə modelinə üstünlük verirlər. Amma bu bərabərliyin özündə olan yanlışlıq isə ondan ibarət idi ki, onlar qadının hər hansı bir hərəkətini itaətdənqaçma kimi qiymətləndirirdilər. Yəni şüurlarda bərabərliyi normal qəbul etsələr də, qadının rolunu və obrazını itaətkar kimi görürlər. Sonda isə qərarları özləri qəbul edirlər”.

**Ailə institutumuzu dağıtmaq məqsədi...**

Sosioloq qeyd edib ki, Azərbaycan cəmiyyətində qadın hüquqları xüsusilə 20-ci əsrdən etibarən yeni müstəviyə qədəm qoyub: “Təsadüfi deyil ki, Avropa cəmiyyətlərindən əvvəl məhz Azərbaycanda qadınlara seçki hüququ verilib. Yəni bunu qəfil qəbul edilən qərar kimi səciyyələndirmək olmaz. Bu, Azərbaycan cəmiyyətində qadına göstərilən qayğı və diqqətin məntiqi yekunu idi. Hazırda mövcud gender bərabərliyi modeli Avropanın təqdim etdiyi modeldən fərqli olsa da, Azərbaycan əxlaqının, milli mənliyinin və ailə institutunun üzərində qurulub. Əgər biz bu modeli zorakı şəkildə Avropa modeli müstəvisinə keçirmək istəsək, Azərbaycan ailələri və ailə institutunun təməli yerlə-yeksan olar. Bu, kifayət qədər həssas məsələdir. Aydındır ki, Qərb cəmiyyəti Azərbaycan cəmiyyətinin şüuruna və ictimai həyatına bu düşüncəni yeritməklə xalqımızın qayğısına qalmır. Bu, sadəcə olaraq, Azərbaycan xalqının təməlində dayanan və tarixin bütün keşməkeşlərindən bizi üzüağ çıxaran ənənəvi ailə institutunu dağıtmaq məqsədi daşıyır”.

Yeganə BAYRAMOVA

# Sakit okeanda “Berlin divarı”

## Rəsmi Paris Yeni Kaledoniyada yerli qəbilələrin torpaqlarını blokadaya alıb, əhali aclıq çəkir, gənclər öldürülür...

Mübariz FEYİZLİ

Cari ilin may ayından etibarən yenidən alovlanan Fransa - Yeni Kaledoniya qarşıdurması pik həddədək gərginləşib. Yeni qarşıdurma Yelisey Sarayının bəyan etdiyi “konstitusiya islahatları”na görə başlayıb. “İslahatlar” özündə 10 ildən artıq ada ölkəsində yaşayan gəlmə fransızların seçki hüquqlarının tanınmasını ehtiva edir. Aborigen kanaklar isə buna kəskin etirazlarını bildirirlər. Çünki, parlamentin müzakirələrinə çıxarılan qanun layihəsinin qəbul ediləcəyi təqdirdə onlar öz tarixi torpaqlarında ikinci dərəcəli topluma çevriləcəklər və Yelisey Sarayının ada ölkəsi ilə bağlı mürtəce səciyyə daşıyan siyasətinə hansısa bir formada təsir göstərmək imkanlarını bütünlüklə itirəcəklər. Yenidən alovlanan münaqişədə daha üç gəncin həyatına son qoyulub. Buna etiraz bildirən kanaklar Yelisey Sarayını kəskin ittiham edən bəyanat yayıblar. Bəyanatı Qəbilə klan başçıları Şurasının sədri Eugene Decoire və şuranın üzvü Yohann Vamytan imzalayıblar.

**Kədərli müqayisə - Fransanın Yeni Kaledoniyada törətdiyi hadisələr Əlcəzair müharibəsini xatırladır**

Yelisey Sarayının dənizaşırı ərazilərdə ən uzaq müstəmləkələrindən biri sayılan Yeni Kaledoniya (Ada ölkəsi Fransadan təxminən 20 min kilometr uzaqda yerləşir) uzun illərdir ki, Fransanın müstəmləkəçi siyasətindən ciddi əziyyət çəkir. Təxminən 250 min əhaliyə və 20 min kvadratkilometr əraziyə malik olan Yeni Kaledoniya adası Sakit Okeanda Avstraliya ilə Yeni Zelandiyanın arasında yerləşir. Hələ 3500 il əvvəl məskunlaşmış bu adanın sakinlərini “meonzeziyalılar” adlandırırlar. Ada 1774-cü ildə məşhur ingilis səyyahı Ceyms Kuk tərəfindən kəşf olunub və Kaledoniya adlandırılıb.



Fransız missionerlərinin adaya ayaq açması XIX əsrin ortalarına təsadüf edir. Missionerlərin adaya gəlişi ilə yerli sakinlərin qara günləri başlayıb. 1853-cü ildə isə Fransa adanı özünün müstəmləkəsi elan edib. XIX əsrin sonuna qədər Fransa adanın yerli sakinlərini istismar etməklə yanaşı, qatı cinayət törətmiş məhkumlarını da bu adaya sürgün edirdi. XX əsrin əvvəllərindən başlayaraq Fransa adada tapılmış faydalı qazıntı yataqlarını da istismar etməyə başlayıb. Ada qızıl, bürünc, xrom, nikel, dəmir və s. filiz ehtiyatları ilə zəngindir. Fransa digər müstəmləkələrində olduğu kimi, burada da təbii sərvətləri talayıb, yerli əhalidən isə ucuz işçi qüvvəsi kimi istifadə edib. Ada sakinləri ötən əsrin 80-ci illərindən etibarən Fransanın ağır müstəmləkəçilik siyasətinə qarşı etirazlara başlayıblar. Onların yeganə məqsədi Fransanın sərhəd tanımayan zülmündən birdəfəlik qurtulmaqdır.

Lakin Yelisey Sarayı ada ölkəsinin onun orbitindən çıxmaq istəyini əsla qəbul etmir. Digər dənizaşırı koloniyalarında (Fransa ərazisinin 18 faizini təşkil edən dənizaşırı koloniyalarda təxminən 2,6 milyon nəfər əhali yaşayır) olduğu kimi, Yeni Kaledoniyada da neokolonializm siyasətini getdikcə daha da sərtləşdirir. Rəsmi Parisin əsas məqsədi zəngin sərvətlərə malik olan bu ölkədə kanakları assimilyasiyaya uğratmaq və beləliklə də, yerli qəbilələrin fəallığına birdəfəlik son qoymaqdır. Bədnam “konstitusiya islahatları” da bu planın tərkib hissəsidir.

Yerli icmaların kəskin etirazlarından sonra “islahatlar” proseduru müvvəqqəti olaraq dondursa da, görünür, Makron imzasına hörmətlə yanaşmır. Yelisey Sarayı bədnam planı həyata keçirməkdə israrlıdır. Bunu kanakların yaydıqları bəyanatın məzmunundan da görmək mümkündür. Bəyanatda kədərli müqayisə aparılaraq rəsmi Parisin Yeni Kaledoniyada yol verdiyi zorakılıqlar Əlcəzair müharibəsi ilə müqayisə olunur. Sənəddə oxuyuruq: “Bu il mayın 13-dən - Yeni Kaledoniyadakı indiki hadisələrin başlanğıcından etibarən Fransa bu uzaq ərazidə köhnə müstəmləkə kabusunu yenidən canlandırmağa başlayır. Dövlətin adanın cənubundakı Mont-Dore kommunasında yerləşən Sent-Luis qəbiləsinə münasibəti, təəssüf ki, Əlcəzair müharibəsi zamanı yerli əhaliyə qarşı rəftarı xatırladır. Heç bir xəcalət çəkməyən dövlət qeyri-mütənasib güc münasibətinə baxmayaraq, zərərsizləşdirilməli və susdurulmalı olan 1200 cinayətkarla iş aparırmış kimi davranır.

Tarixinə iz qoymuş qəbiləmiz üç övladının öldürülməsinə layiq idimi? Bu gənclər siyasi ideallarını cəsarətlə müdafiə etdikləri üçün öldürülmüşdü. Əllərində, sadəcə, ov tüfəngləri, daşatma alətləri, ayaqlarında sadə başmaqlar olan bu gənclər GIGN-in (Fransa Milli Jandarması) güllələri altında can verdilər. Görünür, bizim bədbəxtliyimizə görə Yeni Kaledoniya ilə Fransa arasındakı bir neçə min kilometr məsafə özünümüdafiə anlayışını Sakit okeanda öldürmək üçün lisenziyaya çevirdi”.



**Sent-Luis adasında üç gəncin faciəsi**

Bu gün Sent-Luis adasında yaşanan üç gəncin faciəsi əslində, kanak xalqının bütün nəsillərinin üzləşdiyi faciədir. Gənclər iradə nümayiş etdirib rəsmi Paris əleyhinə siyasi şüarlar səsləndiriblər. Ancaq Fransanın tarixi ənənələrinə, demokratiya və insan haqlarına birdəfəlik arxa çevirən Yelisey Sarayı uzaq ada ölkəsində gənclərin belə cəsarətli davranışlar sərgiləmələrini qəbul etmir və bağışlamır. Makron Sent-Luis adasında üç yerli gəncə cəsarətli baxışlarına görə güllə atılmasına siyasi qərar verməklə əslində, ada ölkəsində milli ruhlu insanların gözünü qorxutmaq, burada müti bir cəmiyyət formalaşdırmaq məqsədi güdür. Bu, Yelisey Sarayının müstəmləkələrində həyata keçirdiyi ənənəvi siyasətin davamıdır. Bəyanatda 1981-ci ildə müstəqillik lideri Pierre Declercqin edam edilməsi xatırlanır. Makron sələflərindən qabağa gedərək üç gəncin vəhşicəsinə güllələnməsi ilə kifayətlənməyərək onlarla eyni əqidədə olan gənclərin aşkarlanaraq hakimiyyətə təslim olmalarına siyasi qərar verib. Həmin gəncləri də eyni aqibət gözləyir. Aydın məsələdir ki, kiçik adada barələrində axtarış elan edilən gənclərin uzun müddət gizlənməsi mümkün olmayacaq. “Əminliklə bildiyimiz tək şey budur ki, bu dövlət üçün nə hüquqa hörmət edilməsi, nə də insan həyatlarının itirilməsi onun ilahi missiyasını yerinə yetirməyinə əngəl törətmir. Buna əmin olmaq üçün, sadəcə olaraq, bizim yollarımızda qanunsuz şəkildə dövr edən hərbi avtomobillərin sayının artmasını müşahidə etmək kifayətdir. Sanki qəbiləmizin ətrafında Sakit okeanın “Berlin divarı”nı tədricən yüksəldirlər. Torpaqlarımız blokadaya alınıb, əhalimiz aclıq çəkir və gənclərimiz öldürülür. Biz artıq yerli məhkəmədən heç nə gözləmirik. Ona məcburən müraciət edirik, amma onun ədalətsiz qərarları güclüləri qoruyur, zəifləri isə bizi anlaşılmazlığın dibinə salır.

Biz Sent-Luis qəbiləsinin istəmədən də olsa, dövlət tərəfindən təşkil edilmiş dəhşətli bir oyunun mərkəzində olduğuna əminik. Burada qurbanlar dövlət tərəfindən təşkil olunan təbliğat vasitəsilə cəllad kimi təqdim edilir və beləliklə, müstəmləkə nizamını qorumağa çalışırlar”, - deyə sənəddə vurğulanır.

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# "Zərifə və Heydər Əliyevlər. Əbədiyaşar məhəbbət" kitabı Astanada təqdim olunub

Qazaxıstanın paytaxtı Astanada keçirilən Azərbaycan Mədəniyyəti Günləri çərçivəsində sentyabrın 25-də Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında Azərbaycanın Xalq yazıçısı Elmira Axundovanın "Zərifə və Heydər Əliyevlər. Əbədiyaşar məhəbbət" (qazax dilində) kitabının təqdimatı keçirilib.Bu barədə AZƏRTAC-a Mədəniyyət Nazirliyindən məlumat verilib.

Azərbaycanın mədəniyyət naziri Adil Kərimli çıxışında qeyd edib ki, Qazaxıstanda Ümummilli Lider Heydər Əliyevə həsr olunmuş kitabın təqdimatının təşkil etmək bizim üçün böyük şərəfdir: "Bu təqdimat tədbiri təkcə Ulu Öndərə ehtiram əlaməti deyil, həm də ölkələrimiz arasında möhkəm tarixi əlaqələrin olduğunu təsdiqləyir. Azərbaycan və Qazaxıstan qardaş ölkələr olmaqla uzun illərdir ki, qarşılıqlı hörmət, etimad və əməkdaşlığa əsaslanan münasibətləri inkişaf etdirirlər. Bizi ümumi tarix, mədəniyyət və adət-ənənələr birləşdirir ki, bu da əlaqələrimizi xüsusilə dəyərli edir. Azərbaycan ilə Qazaxıstan arasında möhkəm dostluq münasibətləri bizim ümumi inkişaf və tərəqqi istəyimizə əsaslanır. Bu əlaqələr çoxillik dostluğun nəticəsi kimi xalqlarımız arasında gələcək əməkdaşlığın da açarıdır. Azərbaycan-Qazaxıstan münasibətlərinin və bugünkü yüksək inkişaf səviyyəsinin banisi Ulu Öndər Heydər Əliyevdir. Ümummilli Liderin dost ölkəyə səfərləri, keçirdiyi görüşlər bütün sahələrdə, o cümlədən mədəniyyət sahəsində əlaqələrin inkişafı üçün möhkəm zəmin yaradıb. Biz Qazaxıstanda Ulu Öndərin xatirəsinə dərin hörmət və ehtiramdan məmnunluq duyuruq. Ötən ilin aprelində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin iştirakı ilə Astanada Heydər Əliyev adına küçənin açılışının keçirilməsi bunun bariz nümunəsidir.

Ümummilli Liderin ideyaları türkdilli dövlətlər arasında, xüsusən də mədəniyyət sahəsində əlaqələrin inkişafında həmişə mühüm rol oynayıb. Bu gün türkdilli dövlətlərlə əlaqələrin dərinləşdirilməsi Prezident İlham Əliyevin həyata keçirdiyi Azərbaycanın xarici siyasətinin ən mühüm istiqamətlərindən biridir: "İnanırıq ki, Heydər Əliyevin zəngin dövlətçilik irsi gələcəkdə də ölkələrimiz arasında əməkdaşlığın möhkəmlənməsi və dərinləşməsi üçün öz töhfəsini verəcək".



"Zərifə və Heydər Əliyevlər. Əbədiyaşar məhəbbət" kitabı haqqında söz açan nazir bildirib ki, bu nəşr, sadəcə, ədəbi əsər deyil, görkəmli siyasi xadim, yeni müstəqil Azərbaycan dövlətinin banisi Ümummilli Lider Heydər Əliyevin və onun ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın həyatının mühüm məqamlarını əks etdirən təsirli hekayətdir. Elmira Axundovanın çoxsaylı kitabları arasında onun bir neçə dilə tərcümə edilmiş və Azərbaycan Respublikasının Dövlət Mükafatına layiq görülmüş "Heydər Əliyev və onun dövrü" çoxcildlik əsəri də xüsusi yer tutur.

Xalq yazıçısı Elmira Axundova kitab haqqında məlumat verərək deyib: "Altıcildlik "Heydər Əliyev. Şəxsiyyət və zaman" roman-tədqiqatı üzərində işlədiyim dövrdə, təbii ki, qəhrəmanımın ömür-gün yoldaşının şəxsiyyəti ilə də yaxından maraqlanmışdım. Çoxsaylı müsahiblərim Zərifə xanım haqqında, xüsusən də Heydər Əliyevlə münasibətləri barədə xeyli maraqlı məqamları danışmışdılar. Zaman keçdikcə bu mozaik epizodlardan mükəmməl bir lövhə yarandı. Başa düşdüm ki, Heydər Əliyevə həqiqi ailə xoşbəxtliyi, bir-birindən layiqli, istedadlı oğulla qız bəxş edən yeganə qadın haqqında yazmasam, qəhrəmanımın həyat və tale epopeyası yarımçıq olacaq... Çoxillik axtarışların bəhrəsi olan həmin əsər artıq qarşınızdadır və onun nə qədər uğurlu alındığını yalnız oxucu söyləyə bilər. Ümid edirəm ki, həcmcə çox da böyük olmayan bu kitabı oxuyub başa vurandan sonra qəhrəmanlarımı daha çox sevəcəksiniz".

Qazaxıstan Respublikasının Mədəniyyət və İnformasiya Nazirliyi Arxiv, sənədləşmə və kitab işi komitəsinin sədr müavini Rollan Kuspan, Azərbaycanın Qazaxıstandakı səfiri Ağalar Atamoğlanov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova, Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasının direktoru Qaziza Nurqalieva, tarix elmləri doktoru, professor, kulturoloq Fuad Məmmədov, AMEA N.Gəncəvi adına Ədəbiyyat İnstitutu Orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru Fəridə Əzizova, Azərbaycan Yazıçılar Birliyinin katibi İlqar Fəhmi və başqaları çıxış edərək kitabın əhəmiyyətini yüksək qiymətləndiriblər.

Sonda Azərbaycanın mədəniyyət naziri Adil Kərimli Məhəmməd Füzulinin "Bəngü-Badə" əsərinin əlyazmasının surətini, Xalq yazıçısı Elmira Axundova isə müəllifi olduğu kitablardan bir neçə nüsxə Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasına hədiyyə ediblər.

Qeyd edək ki, kitabda xalqımızın tarixində müstəsna yeri olan iki parlaq şəxsiyyətin - Zərifə və Heydər Əliyevlərin boya-başa çatdıqları ailələrindən, uşaqlıq və gənclik illərindən, həyatın bütün çətinliklərinə birgə sinə gərməyə kömək edən əbədiyaşar məhəbbətindən söhbət açılır.

Əsər "Xarakterlərin formalaşması (1940-cı illər - 1950-ci illərin əvvəlləri)", "Sevmək haqqı", "Əks-kəşfiyyatçının şəxsi həyatı", "Ordinatorluqdan akademikliyə", "Lider", "Respublika rəhbərinin xanımının gündəlik həyatı", "Qalstuksuz" Heydər Əliyev (XX əsrin 70-ci illəri)", "Moskva həyatı (7 saylı hökumət bağının divarları arxasında)", "O, əzablarını sona qədər gizlətdi..." və "Ölümə qalib gələn məhəbbət" adlı bölmələrdən ibarətdir.

Bakıda "Füyuzat" mətbəəsində çap olunan kitabın redaktoru Tamilla Nuriyevadır. Kitab Azərbaycan Respublikasının Qazaxıstanın Aktau şəhərindəki Baş konsulluğunun dəstəyi ilə qazaxcaya tərcümə edilərək nəşr olunub.

## İdman

### Azərbaycan və Konqo arasında idman sahəsində əməkdaşlığa dair memorandum imzalanıb



Gənclər və idman naziri Fərid Qayıbov Konqo Demokratik Respublikasının idman və istirahət naziri Didye Budimbu Ntubuanqa və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, görüşdə iki ölkə arasında idman sahəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Qonaq ölkəmizdə olduğu müddətdə bir sıra idman qurğularının fəaliyyəti ilə tanış olduğunu qeyd edib və Bakıda müasir idman infrastrukturunun onda xoş təəssürat yaratdığını bildirib. Sonda Fərid Qayıbov və Didye Budimbu Ntubuanqa Azərbaycan Respublikası ilə Konqo Demokratik Respublikası arasında idman sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar.

### Tennisçilərimiz beynəlxalq yarışda iştirak edəcək



Azərbaycanın stolüstü tennisçiləri beynəlxalq yarışda iştirak edəcəklər. Yığma bu məqsədlə Gürcüstana yollanıb. Batumi şəhərində təşkil olunan "WTT Youth Contender" turnirində 10 idmançı bacarığını göstərəcək.

Baş məşqçi Mixail Timofeyev və məşqçi Səbinə Əzizlinin rəhbərliyi altında Adil Əhmədzadə, Rüstəm Hacılı, Hüseyn Eylazov, Onur Quluzadə, Tunar Bağırov, Mərziyyə Nurmətova, Arzu Aslanova, Aylin Əsgərova, Yağmur Məmmədli və Şəbnəm Mansurova etimadı doğrultmağa çalışacaqlar. Beynəlxalq yarışa sentyabrın 29-da yekun vurulacaq.

### AÇ-2025 Moldovada keçiriləcək

19 yaşadək futzalçılar arasında final mərhələsi 2025-ci ildə keçiriləcək Avropa çempionatına Moldova evsahibliyi edəcək.Bununla bağlı UEFA İcraiyyə Komitəsi qərar qəbul edib. Oyunlar gələn il sentyabrın 28-dən oktyabrın 5-dək paytaxtdakı "Kişinyov Arena"da keçiriləcək. Sayca 4-cü dəfə təşkil olunacaq qitə birinciliyinin seçmə oyunlarının da tarixləri açıqlanıb. Gələn ay - oktyabrın 31-də seçmə mərhələlərin püşkü atılacaq. İlkin mərhələnin oyunları gələn il yanvarın 21-dən 26-dək, əsas mərhələnin görüşləri isə 25-30 martda keçiriləcək.




Qeyd edək ki, U-19 yığmamız mübarizəyə indiyə qədər əsas mərhələsindən başlayıb. Komandaların yeni mövsümə hansı mərhələdən başlayacağı reytinq cədvəli əsasında müəyyənləşəcək. "Kişinyov Arena" 2022-ci ilin dekabrında istifadəyə verilib, 5000 tamaşaçı tutumuna malikdir.



### "Kəpəz" braziliyalı futbolçu ilə müqavilə imzalayıb

"Kəpəz" heyətinə yeni futbolçu cəlb edib. Klubdan verilən məlumata görə, Gəncə təmsilçisi braziliyalı Paçu Liranın keçidini rəsmiləşdirib. Hücumçu mövqeyində çıxış edən 28 yaşlı oyunçu ilə mövsümün sonuna kimi müqavilə imzalanıb. Forvardın son klubu ölkəmizdə "Turan Tovuz" olub.

### Azərbaycan klubu ispaniyalı basketbolçu transfer edib

Yeni mövsümdə Azərbaycan Basketbol Liqasında mübarizə aparacaq "Ordu" komandası yeni oyunçu transfer edib. Klubun mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ispaniyalı basketbolçu Roke ilə 1 illik müqavilə imzalanıb. Boyu 182 santimetr olan oyunçu son olaraq, İspaniyanın "Villaqarsiya" komandasında çıxış edib.




Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4964
Sifariş: 2199
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Nardar BAYRAMLI